Günəş Şərqdən doğur!

№ 49 (5330), 2021-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az

17 mart 2021-ci il (çərşənbə)



## Zaman gəlib çatdı

Apreldən Türkiyəyə şəxsiyyət vəsiqəsi ilə getmək mümkün olacaq

(Səh.2)

### Günün içindən...



**Millət vəkilləri ölkədəki bahalaşmaya etiraz etdilər**

Baş nazir söz verib ki, qaldırılan məsələlərlə ciddi məşğul olacaq

Parlamentin martın 15-də keçirilən iclasında millət vəkilləri bir sıra təkliflər verməklə yanaşı, həm də qiymət artımı və digər çoxsaylı problemlərlə bağlı şikayətləri gündəmə gətiriblər.

(səh.3)

**ATƏT bölgədə dəyişən vəziyyəti yaxından izləyir**



Ann Linde: "Qarabağ üzrə üçtərəfli bəyanatın reallaşması münaqişənin həlli üçün əsas yaradır"

(səh.2)

# Ağdamda 6 nəfər minaya düşüb



## İki qardaş ölüb, ağır yaralananlar var

Dünən saat 16:00 radələrində 6 mülki şəxsin Ağdam rayonunun işğaldan azad olunmuş ərazisində olarkən piyada əleyhinə minaya düşməsi faktı ilə bağlı rayon prokurorluğuna məlumat daxil olub.

(səh.8)

# Azərbaycan yeni dövrə qədəm qoyur



Qarabağın bərpası üçün ilkin olaraq büdcədən 2,2 milyard manat vəsait ayrılıb

(səh.5)

✓ **"Xankəndini azad etmək bir saatlıq işdir"**

(səh.4)

✓ **General qəsdən adam öldürmə cinayətində təqsirləndirilir**

Rövşən Əkbərovun nədə ittiham olunduğu məlum olub

(səh.9)

✓ **Müseyib son gülləsi bitənədək döyüşüb**

Mayorun bacısı: "Şəhid olanda ətrafında 70-dən çox erməni meyiti sayıblar"

(səh.5)

✓ **Yoluxanların sayı 1000-ə yaxınlaşdı**

309 nəfər müalicə olunub, 12 nəfər isə vəfat edib

(səh.9)

# “Məcbur edəcəyik...”

## Prezident: “Ermənistan Azərbaycana vurduğu ziyanın hamısını ödəyəcək”



Martın 15-də Prezident İlham Əliyev, Birinci Vitse-prezident Mehriban xanım Əliyeva və qızları Leyla Əliyeva Füzuli və Xocavənd rayonlarına səfər ediblər. Dövlət başçısı Füzuli-Hadrut avtomobil yolunun təməlqoyma mərasimində iştirak edib. Ölkə rəhbəri vurğulayıb ki, bu avtomobil yolunun inşası azad edilmiş ərazilərin bərpası üçün böyük əhəmiyyət daşıyır: "Bu, birinci layihə deyil. Artıq bir neçə yol layihəsi icra edilməkdədir".

**“Azad edilmiş torpaqların bərpası başlayıb”**

**Prezident vurğulayıb ki, Füzulidən Şuşaya - Zəfər yolu çəkilir. Eyni zamanda, Bərdə-Ağdam yolunun çəkilişi yaxın gələcəkdə icra ediləcək:** ”Horadizdən Zəngilana qədər yol çəkiləcək. Bir sözlə, müharibədən dörd ay keçməsinə baxmayaraq, böyük quruculuq işləri başlayıb. Yenə də azad edilmiş torpaqlarda olarkən, bu dağıntıları görərkən bir daha görürük ki, mənfur düşmən bizim bütün yaşayış məntəqələrimizi yerlə-yeksan edib, tarixi irsimizi silmək istəyib. Amma buna nail ola bilmədilər. Biz bu torpaqlara qayıtmışıq. Qəhrəman xalq kimi, müzəffər dövlət kimi qayıtmışıq. Düşməni öz doğma torpaqlarımızdan qovmuşuq. Bu gün azad edilmiş torpaqlara gələrkən Qaraxanbəyli kəndindən keçdik. Qaraxanbəyli kəndi müharibənin ilk günündə - sentyabrın 27-də azad edildi. Bax, biz məhz buradan, o istiqamətdən öz şərəfli missiyamızı icra etməyə başladıq və düşməni torpaqlarımızdan qovduq. İndi isə quruculuq işləri ilə məşğuluq. Həyatımızın yeni dövrü başlayır - quruculuq, inkişaf, torpaqlarımızın bərpası dövrü”.

**“Dırnaqarası ”Artsax dövləti” cəhənnəmə getdi”**

**Prezident bəyan edib ki, birinci Qarabağ müharibəsi dövründə bu qədər dağıntılar olmayıb. Dövlət başçısı qeyd edib ki, məhz işğal dövründə mənfur düşmən bizim şəhərlərimizi bu hala salıb:** ”Bura Füzuli şəhəridir, amma şəhərdən əsər-əlamət qalmayıb, şəhər yoxdur, dağıdılıb. İşğal dövründə binalarımızı söküb, daşlarını, damlarını aparıblar, oğru kimi, talançı kimi. Bunlar, Füzuli şəhərinin qalıqlarıdır. Ermənistanı müdafiə edən xarici dairələr gözlərini açıb onların vəhşiliyinə baxsınlar. Otuz il torpaqlarımızı işğal altında saxlayan mənfur düşmən bir daşı-daş üstündə qoymayıb. Görün, yollar nə gündədir. Otuz il ərzində bu yollar asfalt görməyib. Onların bütün təbliğatı yalandır, bütün tarixi saxtadır. Özlərini dövlət adlandırırdılar, dırnaqarası ”Artsax dövləti” cəhənnəmə getdi. Bilirdilər ki, bu torpaq onların deyil. Bu torpaq azərbaycanlıların torpağıdır”.

**“Azərbaycan Ordusu heç vaxt mülki əhaliyə qarşı müharibə aparmayıb”**

**Dövlət başçısı bildirib ki, Hadrut qəsəbəsinin azad edilməsi çox uğurlu hərbi əməliyyat nəticəsində mümkün olub:** ”Hadrutun ətrafında yerləşən yüksəkliklər Azərbaycan Ordusu tərəfindən götürüləndən sonra faktiki olaraq nəzarət Azərbaycan Ordusuna keçdi və Hadrut qəsəbəsinin işğaldan azad edilməsi artıq qaçılmaz idi. Deyə bilərəm ki, bütövlükdə 44 günlük müharibə zamanı mülki erməni əhali arasında itkilər kifayət qədər az idi. Ona görə ki, Azərbaycan Ordusu heç vaxt mülki əhaliyə qarşı müharibə aparmayıb. Ermənilərdən fərqli olaraq, biz müharibə dövründə ancaq hərbi birləşmələrə qarşı müharibə aparmışıq, onları məğlub etmişik, onları torpaqlarımızdan qovmuşuq. O ki qaldı mülki əhaliyə, Ermənistanın statistikasına görə, müharibə dövründə təqribən 40-a yaxın mülki şəxs həlak olub. Onların da böyük əksəriyyəti məhz hərbi əməliyyatlarda iştirak edən mülki şəxslər idi”.

**“Ermənistan Azıx mağarasında qanunsuz işlər aparıb”**

**Prezident vurğulayıb ki, Ermənistan Azıx mağarasında qanunsuz işlər aparıb, onlar bu ziyanın hamısını ödəyəcəklər:** ”Azıx da qədim Azərbaycan kəndidir, qədim yaşayış yeridir. Buraların təbiəti çox gözəldir. Bu mağaranı azərbaycanlı alim, arxeoloq Məmmədəli Hüseynov 1960-cı ildə aşkar edib və ondan sonra burada tədqiqatlar aparılıb. Bu, dünyanın ən qədim insanının yaşayış yerlərindən biridir, Azərbaycan tarixinə məxsusdur, bizim tarixi sərvətimizdir. Ermənistan bu mağarada qanunsuz olaraq işlər aparmışdır, xaricdən qanunsuz olaraq alimlər gətizdirmişdir. Onlar bu mağaraya, bizim tarixi irsimizə böyük ziyan vurmuşlar. Onlar bu ziyanın hamısını ödəyəcəklər. Onları məcbur edəcəyik. Bundan sonra azərbaycanlı alimlər və onların dəvəti ilə gələcək xarici alimlər burada qanuni yollarla tədqiqatlar aparacaqlar”.

**İsmayıl**



## İlham Əliyev və Mehriban Əliyeva Şuşa şəhərində olublar

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva martın 16-da Şuşa şəhərində olublar.**

Bu barədə Prezidentin Mətbuat xidməti məlumat yayıb.

Səfərdən geniş reportaj martın 17-də təqdim ediləcək.

*Xatırladaq ki, Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Füzuli və Xocavənd rayonlarında da olmuşdular.*

## Slovakiya XİN başçısı Azərbaycana gəlir



**Slovakiyanın xarici və Avropa işləri naziri İvan Korçok Azərbaycan Respublikasına işgüzar səfər edəcək.**

Bu barədə Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, səfər sabah baş tutacaq.

## Azərbaycan PUA-ları təlimdə



**Əməliyyat-taktiki təlimlər çərçivəsində pilotsuz uçuş aparatlarının (PUA) heyətləri havadan müxtəlif hündürlüklərdə kəşfiyyat apararaq əldə edilən məlumatları idarəetmə məntəqələrinə ötürür.**

Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

Bildirilib ki, PUA heyətləri həmçinin şərti düşmənin mövqelərinin, o cümlədən müdafiəsinin dərinliyindəki hədəflərin aşkar edilməsi və müvafiq məlumatların idarəetmə məntəqələrinə göndərilməsi üzrə tapşırıqları icra edir.



## Zaman gəlib çatdı

### Apreldən Türkiyəyə şəxsiyyət vəsiqəsi ilə getmək mümkün olacaq

**Türkiyə və Azərbaycan vətəndaşları, 1 aprel 2021-ci il tarixindən etibarən qarşılıqlı ziyarətlərdə yalnız şəxsiyyət vəsiqəsi ilə səyahət edə biləcək.**

“Şərq” türk mətbuatına istinadən xəbərverir ki, Türkiyə Təhlükəsizlik Ümumi Müdirliyi bu barədə rəsmi ”Twitter” hesabında paylaşım edib: ”İki dövlət, bir millət. Türkiyə və Azərbaycan indi daha yaxındır... İki ölkənin vətəndaşları, 1 aprel 2021-ci il tarixindən etibarən qarşılıqlı səfərləri şəxsiyyət vəsiqəsi ilə həyata keçirə biləcək. Vizasız yaşayış müddəti də 30 gündən 90 günə qaldırılıb”.

# ATƏT bölgədə dəyişən vəziyyəti yaxından izləyir

## Ann Linde: “Qarabağ üzrə üçtərəfli bəyanatın reallaşması münaqişənin həlli üçün əsas yaradır”



**”Qarabağla bağlı üçtərəfli bəyanatın həyata keçirilməsi münaqişənin həlli üçün əsas ola bilər”.**

APA-nın xəbərinə görə, bu barədə İsveçin xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Ann Linde Ermənistana səfəri çərçivəsində xarici işlər naziri Ara Ayvazyanla görüşdən sonra keçirilən birgə mətbuat konfransında deyib.

O bildirib ki, təşkilat üçtərəfli bəyanatın imzalanmasından sonra bölgədə dəyişən vəziyyəti yaxından izləyir.

İnsan tələfatına görə üzgün olduğunu ifadə edən ATƏT sədri atəşkəs bəyanatının imzalanmasını alqışladığını vurğulayıb: ”Bəyanatdakı maddələrin tam reallaşdırılması münaqişənin həllində irəliləyiş üçün zəmin yaradacaq”.

Onun sözlərinə görə, bir sıra məsələlər hələ tam həll olunmayıb, bu baxımdan ATƏT və beynəlxalq ictimaiyyət öz üzərinə düşən rolu oynamalıdır.

ATƏT sədri qeyd edib ki, beynəlxalq təşkilatların nümayəndələrinin münaqişə bölgəsinə sərbəst girişinin təmin edilməsi vacibdir.

# Millət vəkilləri ölkədəki bahalaşmaya etiraz etdilər

## Baş nazir söz verib ki, qaldırılan məsələlərlə ciddi məşğul olacaq

Parlamentin martın 15-də keçirilən iclasında millət vəkilləri bir sıra təkliflər verməklə yanaşı, həm də qiymət artımı və digər çoxsaylı problemlərlə bağlı şikayətləri gündəmə gətiriblər.



**Deputat Fazil Mustafa qiymətlərin kəskin qalxmasından şikayətlənib və əhalinin gəlirlərinin azaldığını söyləyib:** "Bu, obyektiv səbəbdən olsa da, subyektiv amillər də var. Ərzaq məhsullarının, tikinti materiallarının və s. qiyməti kəskin artıb. Özəl sektorda pandemiyaya görə iş yerləri bağlanıb, çox insan iş yerini itirib. İşsizlikdən sığorta ödənişi ilə təmin olunan şəxslərin sayı olduqca azdır. Hökumətdən xahiş edirəm, bu boşluqlara baxılsın. Ölkədə işsiz əhalinin sayı artır". Millət vəkili vurğulayıb ki, müsbət işlər var. Ancaq görüləcək işlər daha çoxdur: "İşğaldan azad olunmuş ərazilərin bərpası ilə bağlı təkliflər hazırlanıb. Ancaq sual odur ki, bu təkliflər hazırlanarkən həmin bölgələri təmsil edən deputatların təklifləri nəzərə alınıbmı? Bu təkliflər müzakirə ediləcəkmi? Biz çox vaxt bu məsələləri hamılıqla müzakirə etmədiyimizə görə, ciddi səhvlərə yol veririk".

**"Cəfər Cabbarlı adına kinostudiyanın ətrafı ancaq restoran, kafe və barlardır"**

**Ölkədə boşanma hallarının artdığını deyən Fazil Mustafa məktəblərdə təhsilin səviyyəsinin düşdüyünü bildirib:** "Burada obyektiv və subyektiv səbəblər də var. Bir sıra yerlərdə mədəniyyət evləri fəaliyyət göstərmir. Sökülən mədəniyyət evlərinin əraziləri ayrı-ayrı şəxslərə sot-sot satılır. Birinci Vitse-prezident Mehriban Əliyevanın həssaslığı olmasaydı, bir çox məmur mədəniyyət evlərinin ərazisinin satışını həyata keçirərdilər. Gənclər evlərinin də, digər mərkəzlərin də boş qalması dövlətə heç bir fayda vermir. Mədəniyyət Nazirliyi ilə birlikdə bu prosesə başlamaq lazımdır. Ölkədə 47 olimpiya kompleksi fəaliyyət göstərir. Bunlar dövlət büdcəsi hesabına tikilib. Ancaq qapısı bağlı qalıb. Cəfər Cabbarlı adına kinostudiyanın ətrafı ancaq restoran, kafe və barlardır. Hansı ölkədə belə vəziyyət var?! Postpandemiya dövründə bu problemlər həllini tapmalıdır. Pilot layihələr iflasa uğrayıb. Bunun çarəsini tapmaq lazımdır".

**"Pula bu cür hərislik heç bir ölkənin bank sistemində yoxdur"**

**Deputat Fəzail Ağamalı isə deyib ki, Azərbaycanda "cehiz faizi" deyilən yüksək faizli istehlak kreditləri ailə quranların faciəsinə çevrilib:** "Pula bu cür hərislik heç bir ölkənin bank sistemində yoxdur. Mərkəzi Bankın sədri deyir ki, yeni binanın tikintisi üçün elan edilən tenderin nəticəsi məlum olub. Anormal bank sistemimizdə islahatlara ehtiyac var. Vətəndaşbank sistemi bataqlıqdadır. "Bank haqqında" qanun yenidən qəbul edilməlidir".

### *"Qiymət artımını yanacağın qiymətlərinin artırılması ilə əlaqələndirənlər var. Bu var. Amma hökumət tərəfindən kifayət qədər subsidiyalar verilib"*

**"Hökumətin bahalaşmanın qarşısını almaq üçün planları varmı?"**

**Millət vəkili Tahir Kərimli də hədsiz bahalaşmadan gileylənib:** "Hökumətin bahalaşmanın qarşısını almaq üçün planları varmı? Bahalaşma, qiymət artımları bütün sosial tədbirlərin, maaş artımlarının belini qırır. Bununla bağlı hansı tədbirlər görüləcək?".

**"Dövlət siyasətinin əsas prioriteti vətəndaş məmnunluğudur"**

**Deputat Elnur Allahverdiyev "Sovetski"dən köçürülən vətəndaşlara verilən kompensasiyanın artırılmasını təklif edib:** "Yasamalda "Sovetski" adlanan ərazidə müəyyən quruculuq işləri görülüb, park salınıb, insanların istifadəsinə verilib. Ancaq müəyyən problemlər qalmaqdadır. Ərazidən hələ də köçməmiş bəzi vətəndaşlar verilən kompensasiyanın az olduğunu deyirlər. Biz Yasamalı təmsil edən üç deputat vətəndaşlarla görüşürük. Onlara verilən kompensasiyanın artırılması mümkündürsə, bunu edək. Çünki dövlətin siyasətinin əsas prioriteti vətəndaş məmnunluğudur. Bu problemin kökündən həll edilməsi mümkündürmü?".

**"Kəlbəcərlilər "İstisu"da zavod tikilməsini xahiş edir"**

**Millət vəkili Aqil Məmmədov bildirib ki, seçicilərı doğma Kəlbəcərdə bərpa işlərində iştirak etmək istəyirlər:** "Kəlbəcər rayonunda da geniş bərpa işlərinə başlanılıb. Rayonda aparılan tikinti-abadlıq işlərində iştirak edəcək dövlət qurumlarından, özəl şirkətlərdən o bölgənin insanlarına üstünlük vermələrini xahiş edirəm. Kəlbəcər təbii sərvətlərlə zəngin olan bölgədir. "İstisu" dünyada mövcud olan ən qiymətli mineral sulardan biridir. 2 hissədən, 12 bulaqdan ibarətdir. Azərbaycanda mövcud olan mineral suların qiyməti ilə müqayisə aparsaq, nə qədər itkiyə yol verildiyini görürük. Seçicilərimiz xahiş edir ki, dövlət büdcəsi hesabına orada sudoldurma zavodu tikilsin. Bu, yeni iş yerinin yaranmasına da imkan yaradacaq".

**"Bu qədər dövlət şirkətini saxlamağın heç bir əhəmiyyəti yoxdur"**

**Millət vəkili Qüdrət Həsənquliyev bəyan edib ki, özəlləşdirilən əmlakın dəyəri 61,5 milyon manat olub. Özəlləşdirmə sürətlə həyata keçirilməlidir:** "Bu qədər dövlət şirkətini saxlamağın heç bir əhəmiyyəti yoxdur. İqtisadiyyatımızı yenidən qurmaq üçün xaricdən mütəxəssislər dəvət etməyə ehtiyac var. Bunu hökumət üzvləri etməlidir. Burada utanılası, çəkinəsi heç nə yoxdur. Prezident İlham Əliyevin də tapşırıqları var. Torpaq sahələrinin kateqoriyasının dəyişdirilməsi üçün müraciətlər olunub. Bakı kəndlərinin ətrafındakı torpaq sahələri kənd təsərrüfatı təyinatlıdır. Amma əhalinin sayı artır. Bu gün torpaqların təyinatının dəyişdirilməsində hökumət neqativ mövqe sərgiləyir. Hökumət bu siyasətinə yenidən baxmalıdır. Dünyanın hər yerində əhalinin sosial müdafiəsinə cavabdeh olan qurum çalışır ki, bu istiqamətə daha çox pul ayrılsın. Amma bizdə bu qurum fəxarətlə daha az pul xərclənməsindən bəhs edir. İnsanların normal ünvanlı sosial yardım ala bilməsi üçün qərarlar dəyişdirilməli, yaxud hökumət çox çevik olmalıdır".

**"Dövlət və özəl şirkətlər olsa da, sərnişindaşımada qiymətlər eynidir"**

**Deputat rus və ingilis dilində TV-lərin yaradılmasını təklif edib:** "44 günlük Vətən müharibəsində ölkə prezidenti onlarla dünya televiziyasına müsahibələr verib, informasiya savaşı aparıb. Bizə ən azı MDB məkanında yayımlanacaq rus dilində televiziya lazımdır. Biz bu regionda yaşayırıq. İkincisi, bütün dünyada ingilis dilində yayımlanacaq televiziyaya ehtiyac var. Digər bir probləmə də toxunum. Bizdə nəqliyyat daşımaçılığı ilə həm dövlət, həm də özəl şirkətlər məşğul olur, amma sərnişindaşımada qiymətlər demək olar ki, eynidir. Dövlət əmlakının idarəetməyə verilməsi ilə bağlı qanun layihəsi hazırlanır. Bu qanun layihəsini səbirsizliklə gözləyirəm. Eyni zamanda Rəqabət Məcəlləsinin də ən qısa zamanda qəbuluna ehtiyac var".

**"Bakı İslam Universitetini bitirən yüzlərlə tələbənin diplomu tanınmır"**

**Milli Məclis üzvü Razi Nurullayev bildirib ki, Bakı İslam Universitetini bitirən yüzlərlə tələbənin diplomu tanınmır, bakalavrlar isə magistraturaya daxil ola bilmir:** "Bu, sadə məsələ deyil, yüzlərlə gəncin taleyidir. Əgər universitet qanunsuz idisə, vaxtında niyə göz yumulub? Niyə iki dəfə 5 illik olmaqla 10 illik lisenziya ala bilib? Nədən oranı bitirənlər ilyarım yox, bir illik hərbi xidmətə çağırılıb? 20 nəfərlik bir qrupda bir nəfər məhkəmə yolu ilə diplomunu ala bilibsə, 19 nəfər də ala bilər. Bu məsələdə ciddi ədalətsizlik, nizamsızlıq və 3550 nəfərin taleyinə biganəlik var". Deputat baş nazirdən bu məsələnin həllinə kömək göstərməyi xahiş edib: "Azərbaycan gəncliyi bu məşəqqəti yaşamalı deyil".

**"Şəhid ailələri və qazilərin mənzil növbəsində problemlər yaşanır"**

**Deputat Məlahət İbrahimqızı isə bildirib ki, Sovet dövründən qalan normalar şəhid ailələri və qazilərin mənzil növbəsinə durmasına problemlər yaradır:** "Bu gün əlilliyin müəyyənləşdirilməsi ilə bağlı ciddi problemlər var. Vətən müharibəsində, o cümlədən Birinci Qarabağ müharibəsindən olan qazilərə əlillik dərəcələrinin verilməsi məsələsinə həssaslıqla yanaşmalıyıq. Bu problem ən qısa zamanda həllini tapmalıdır. Mənzil bölgüsündə sovet dövründən qalan norma tətbiq edilməkdədir. Bu da bu gün şəhid ailələrimizin, qazilərimizin mənzil növbəsinə durmasında problemlər yaradır. Mənzil növbəsinə götürülmədə adambaşına düşən norma çox aşağı olduğundan şəhid ailələri, qazilərimiz mənzil növbəsinə dayana bilmir.

**"Bu məsələ ilə ciddi məşğul olacam..."**

**Şikayətlərdən sonra Baş nazir Əli Əsədov qiymət artımına da münasibət bildirib. Baş nazir bildirib ki, Azərbaycan hökuməti qiymət artımı məsələsini daim nəzarətdə saxlayır:** "Öz imkanlarından istifadə edərək bu məsələ ilə ciddi məşğul olacam. Antiinhisar komitəsi tərəfindən gündəlik monitorinqlər aparılır. Bir çox halda bizlərdən asılı olmayan məsələlər də var. Bizim ticarət partnyorumuz olan ölkələrdə də qiymətlərin artımı gedir. Ancaq bu istiqamətdə tədbirlər görüləcək. Qiymət artımını yanacağın qiymətlərinin artırılması ilə əlaqələndirənlər var. Bu var. Amma hökumət tərəfindən kifayət qədər subsidiyalar verilib". Baş nazir onu da bildirib ki, millət vəkillərinin söylədiyi fikirlər, seçicilərin müraciətləri hökumət tərəfindən araşdırılacaq.

**İsmayıl Qocayev**

# Hay-küyü bilərəkdən salırlar

## Ermənistanın təzminat ödəmək imkanı yoxdur

Ermənistanın Azərbaycanla sərhəddə yerləşən Qafan şəhəri yaxınlığında erməni hərbçilərin acınacaqlı vəziyyəti barədə yayılan video ölkədə geniş rezonans doğurub. Ermənistan hərbi polisi və prokurorluq məsələ ilə bağlı istintaq başladıb, post komandiri isə saxlanılıb. Erməni KİV-lərində yayılan məlumata görə, videoda bir qrup hərbçi postlarındakı vəziyyətin dözülməz olduğunu, qida və geyim təminatının, radio və digər lazımi cihazların olmadığını bildiriblər.

Hətta erməni hərbçilər Zəngəzurun önəmli yaşayış məntəqəsi olan Qafanın yaxın günlərdə Azərbaycana təhvil veriləcəyini iddia ediblər: "Qafan onsuz da təslim olduğu üçün geri çəkilməyimiz əmr edilib. Hər tərəfdə türklərdir (azərbaycanlılar - red). Üç tərəfdə onların postları yerləşir. Hər postda 50-60 nəfər var və bizdə isə cəmi 9 nəfərdir". Hüquq müdafiəçisi Ruben Melikyan "Qafanın təslim olması" ilə bağlı qalmaqallı videonun çəkildiyi nəzarət məntəqəsinin komandirinin gecə yarısı hərbi polisə çağrıldığını deyib. Əslində sosial şəbəkələrdə yayılan video və hərbçilərin etirafı 44 günlük müharibədə məğlub olan erməni ordusunun sadəcə qalıntılardan ibarət olduğunu açıq-aşkar göstərir. Azərbaycan Dövlət Sərhəd Xidmətinin qoşunları tez zamanda Ermənistan sərhədində möhkəmlənərkən, hərbçilərimiz üçün kazarmalar, müşahidə məntəqələri qurularkən Ermənistan tərəfinin sərhəd ərazilərinə nizamsız, başıpozuq könüllü dəstələr yerləşdirməsi bu faktı bir daha təsdiqləyir.

**Siyasi şərhçi Azər Qasımov "Şərq"ə açıqlamasında vurğulayıb ki, məğlub Ermənistanın tək Qafan yox, bütün sərhəd boyu acınacaqlı vəziyyətdə olması təbiidir.** Lakin analitik hesab edir ki, son günlər Zəngəzur barədə şayiələr və guya bölgənin Azərbaycana veriləcəyi ilə bağlı dezinformasiyalar erməni mediası tərəfindən məqsədli yayılır: "Azərbaycan müharibə yolu ilə beynəlxalq aləmin tanıdığı qanuni torpaqlarını azad etdi. Fürsəti və gücü olduğu halda Ermənistan ərazisinə girmədi. Hətta Azərbaycan ərazilərində yaşayan dinc əhalinin Ermənis-



### Ona görə bunun qarşılığında Zəngəzuru öz sahibinə qaytarmalıdır

tandan raket atəşinə tutulması zamanı belə düşmən ölkənin sərhədlərindən içəri raket atmadıq, həmin tərzdə qarşılıq vermədik. Bu, Azərbaycanın beynəlxalq qanunlara və dünya ictimaiyyətinin rəylərinə nə qədər əhəmiyyət verdiyinin göstəricisi idi. Həm də qonşu ölkələrin rəsmən təsdiqlənmiş torpaqlarında gözümüzün olmadığının dünyaya nümayiş edilməsiydi. Erməni müxalifəti müxtəlif qərəzli şəkildə öz uydurmaları ilə Azərbaycanı ittiham edir, əsassız iddialarla suçlayır. Məqsəd haqlı Azərbaycanın mövqeyinə kölgə salmaqdır".

**Politoloq xatırladıb ki, Azərbaycan Ermənistanın işğal dövründə bizə vurduğu maddi zərəri hesablamaq üçün ciddi iş aparır:** "Ermənilər yaxşı bilirlər ki, son nəticədə əldə etdiyimiz dəlil-sübutlar beynəlxalq məhkəməyə çıxarılacaq və təzminat davası açılacaq. Məhkəmənin Azərbaycanın xeyrinə nəticələnməməsi üçün heç bir səbəb yoxdur. Düşmən təcavüzünün nəticəsi göz önündədir. Ermənistanın Azərbaycana vurduğu zərər milyard dollarlarla ölçülür. Əlbəttə, indiki halda Ermənistanın bu təzminatı ödəmək imkanı yoxdur. Ona görə də maddi ziyanı torpaqla qarşılamalı olacaq. Həmin ərazinin Zəngəzur olma ehtimalı böyükdür. Amma burada hansısa "işğaldan" söhbət getmir. Zəngəzurun guya hansısa gizli danışıqlar nəticəsində Azərbaycana veriləcəyi barədə hay-küyün məqsədi indidən dünya ictimaiyyətində və erməniparəst dairələrdə fikir formalaşdırmaqdır. Biz təzminat qarşılığında Ermənistandan torpaq tələb edə bilərik. Belə hallar dünya praktikasında olub".

**İsmayıl Qocayev**

# Bazarda inhisarçılıq və monopoliya var



## Vahid Əhmədov: "Qiymət artımı çox ciddi problemlər yarada bilər"

"Ərzaq və qeyri-ərzaq bazarında qiymət artımı müşahidə olunur. Qiymətlər durmadan artır". Bunu Parlamentin plenar iclasında deputat Vahid Əhmədov deyib. Deputat diqqətə çatdırıb ki, inflyasiyanın aşağı olması Azərbaycanda istehlak qiymətlərinin çox yuxarı olmamasına dəlalət edib:

"Görülən çox mühüm işlərə baxmayaraq, bunun qarşısı alınmır. Hökumət bununla bağlı təkliflər hazırlamalıdır. Qiymət artımı çox ciddi problemlər yarada bilər. Bu gün bazarda inhisarçılıq və monopoliya var. Rəqabət Məcəlləsi qəbul edilməlidir. Bu məcəllənin qəbul edilməsi Azərbaycanda həm qiymət siyasətinə, həm də bazarda rəqabətə dəstək olacaq. Bunun qəbulunu tezləşdirməliyik. 2020-ci ildə Azərbaycanda Ümumi Daxili Məhsul 4,3 faiz azalıb. Ən çox azalmalar turizm sahəsində olub".

**V.Əhmədov bildirib ki, ixracın stimullaşdırılması üçün çox ciddi tədbirlərin görülməsinə ehtiyac var.** İdxalda ərzaq məhsullarının üstünlük təşkil etdiyini bildirən deputatın fikrincə, Azərbaycanda ərzaq məhsullarının istehsalına diqqət artırılmalıdır: "Bunu Prezident İlham Əliyev də hökumət qarşısında vəzifə kimi qoyub. Korporativ idarəetmənin müsbət nəticələrindən biri Azərbaycanda vergi sisteminin təkmilləşdirilməsidir. Əvvəllər sahibkarlardan vergi ilə bağlı çox şikayət alırdıq. Bu gün isə demək olar ki, Azərbaycanda vergi ilə bağlı problem yoxdur. Respublikada korrupsiyaya qarşı mübarizə çərçivəsində də tədbirlər görülüb. Amma Azərbaycanın hüquq-mühafizə sistemində islahatların aparılması bizi daha çox maraqlandırır. Məhkəmə sistemində müəyyən islahatlara getmək lazımdır, məhkəmələrin müstəqilliyi təmin edilməlidir".

**V.Əhmədovun sözlərinə görə, işğaldan azad edilmiş ərazilərin bərpasına dövlət büdcəsindən ayrılan vəsait çox azdır:** "Oranın bərpası üçün 10 milyardlarla vəsait tələb olunacaq. Özəl təşkilatlardan, şirkətlərdən də istifadə etmək lazımdır. Məndə olan məlumata görə, İqtisadiyyat Nazirliyi bununla bağlı təkliflər hazırlayıb".

**İsmayıl**





# "Xankəndini azad etmək bir saatlıq işdir"

## Əhəd Məmmədli: *"Xankəndinin Azərbaycanın yuridiksiyasına keçməyinin, orada bayrağımızın dalğalanmasının vaxtı çatıb"*

Rusiya sülhməramlı kontingentinin 7-ci kolonu Kəlbəcər rayonuna 130 ton humanitar yardım yükünü çatdırıb. Bu barədə Rusiyanın Müdafiə Nazirliyi məlumat yayıb. Bildirilib ki, sosial obyekt və yaşayış evlərinin enerji və su təminatı sistemlərini bərpa etmək üçün Humanitar Yardım Mərkəzinin 20 "KamAZ" markalı hərbi avtomobili və müşayiət edən maşınlardan ibarət kolona Kəlbəcər rayonuna elektrik avadanlığı, dəmir-beton konstruksiyaları və tikinti materiallarından ibarət yardım yükü çatdırıb. Nazirlik indiyədək 1 300 ton yükün tranzitinin təşkil edildiyini açıqlayıb.

İndiyədək daşınan humanitar yardımların altından nə çıxdığı məlumdur- mina, pulemyot, raket...Kaş bu dəfə fərqli olsun. Amma artıq nə ümid var, nə də inam.

Məkrli siyasət ortadadır. "AĞ" Partiya sədrinin müavini, politoloq Əhəd Məmmədli rusların növbəti planı və Qarabağda baş verə biləcək proseslər barədə "Şərq"in suallarını cavablandırdı:

**- Qarabağa bu qədər humanitar yardımın daşınmasında məqsəd nədir?**

- Kreml Ermənistanı özündən asılı vəziyyətə salmaq istəyir. Və orada müvafiq şərait yaradır. Məqsəd Azərbaycandan "güzəşt" istəmək və öz şərtlərini diktə etməkdir.

**- Azərbaycanda hərbi təlimlərin başladığını və ermənilərin buna adekvat cavab verdiklərini nəzərə alsaq, növbəti müharibənin başlanması barədə nə düşünürsünüz?**

- Təlimlər başlamazdan əvvəl də demişdim ki, hərbi əməliyyatlar bərpa oluna bilər. İrimiqyaslı savaş olmasa da, antiterror əməliyyatı mütləq keçiriləcək. Hər halda Ermənistanın hansısa müharibə üçün imkanlarının olmadığını unutmamalıyıq.

**- Dediyiniz antiterror əməliyyatları təxminən nə vaxt keçirilə bilər?**

- Çox yaxında. Daha dəqiq desəm, mart-aprel aylarında. Antiterror əməliyyatının keçirilməsinə dair ehtimallar getdikcə artır. Düşmənin təxribatları, təhrikləri bizə səbəb və imkan verir. Əgər bu fürsətdən istifadə etməsək, gələcəkdə növbəti "Qarabağ sindromu" ilə üz-üzə gələ bilərik.

**- Deməli, birdəfəlik düşmən tapdağında olan digər torpaqlarımızın, o cümlədən Xankəndinin də taleyini həll edə bilərik?**

- Əlbəttə. Xankəndini azad etmək bizim üçün bir saatlıq işdir. Sadəcə, siyasi zəmin yaratmaq lazımdır. Azərbaycanın təmkinli mövqeyi də bu məqamla bağlıdır. Lakin məncə, Xankəndinin Azərbaycanın yuridiksiyasına keçməyinin, orada bayrağımızın dalğalanmasının vaxtı çatıb.

**Kənan Novruzov**

# Azərbaycan yeni dövrə qədəm qoyur

## Qarabağın bərpası üçün ilkin olaraq büdcədən 2,2 milyard manat vəsait ayrılıb



Milli Məclisin yaz sessiyasının dünənki plenar iclasında Nazirlər Kabinetinin 2020-ci ildə fəaliyyəti haqqında hesabatı müzakirəyə çıxarılıb. İclasda Baş nazir Əli Əsədov və hökumət üzvləri də iştirak ediblər. Hökumətin hesabatını Baş nazir Əli Əsədov təqdim edib. Müzakirələrdən sonra hesabat səsə qoyularaq qəbul edilib.

**"Ötən il dövlətin bütün imkan və resursları pandemiya ilə mübarizəyə yönəlib"**

*Baş nazir bildirib ki, ötən il dövlətin bütün imkan və resursları pandemiya ilə mübarizəyə yönəlib:* "Hesabat ili ərzində hökumət üzvləri ilə Milli Məclis üzvləri arasında təmaslar daha da dərinləşdirilib. Strateji layihələrin icrası sahəsində aparılan məqsədyönlü işlər davam etdirilib. Ötən ilin son günlərində TAP-ın istismara verilməsi tarixdə ilk dəfə olaraq Azərbaycan qazının Avropaya çatdırılmasını başladıb. Cənub Qaz Dəhlizi Avropa ölkələri ilə yeni əməkdaşlığın təməlini qoyur. Dünya Bankının "Doing business" hesabatında Azərbaycan yüksək yerdədir. Davos Ümumdünya İqtisadi Forumunun hesabatlarında da ölkəmiz bir sıra mövqelərdə qabaqcıl mövqedədir. Neft Fondunun da uğurları haqqında hesabatda məlumatlar var. Ötən il dünyanı bürümüş pandemiya ilə mübarizə və onun mənfi nəticələrinin qarşısını almaq üçün davamlı tədbirlər görülüb. Dövlətin bütün imkan və resursları xəstəliklə mübarizəyə yönəldilib. Ölkədə maska və dərman qıtlığının aradan qaldırılması, laboratoriyaların sayının artırılması istiqamətində tədbirlər görülüb".

**"Ötən il bütün sosial ödənişlər vaxtında və tam həyata keçirilib"**

Əli Əsədov bəyan edib ki, Azərbaycan Cənubi Qafqazda koronavirusa qarşı vaksinasiyaya ilk başlayan ölkədir: "Vaksinasiya prosesinin başladılması xəstəliyin azaldılmasında rol oynayacaq. Hesabat ilində COVID-19 pandemiyasının ölkə iqtisadiyyatına, həmçinin, əhalinin sağlamlığına və sosial-iqtisadi vəziyyətinə təsirinin minimuma endirilməsi diqqət mərkəzində saxlanılıb. 2020-ci ildə pandemiya və xarici mühitin pisləşməsinə qarşı hökumətin gördüyü tədbirlər nəticəsində maksoiqtisadi sabitlik qorunub. Beynəlxalq konyukturanın əhəmiyyətli dərəcədə pisləşməsinə baxmayaraq, ölkənin strateji valyuta ehtiyatları hesabat ilində nəinki azalmayıb, əksinə, 0,2 faiz, artaraq 51,2 milyard dollar təşkil etməklə ÜDM-i üstələyib. Ötən il bütün sosial ödənişlər vaxtında və tam həyata keçirilib".

**"Antikorrupsiya tədbirləri ardıcıl şəkildə aparılır və bütün sahələri əhatə edir"**

**Baş nazir vurğulayıb ki, antikorrupsiya tədbirləri ardıcıl şəkildə aparılır və bütün sahələri əhatə edir:** "2020-ci ildə institusional sahədə həyata keçirilən islahatlar davam edib. Bununla yanaşı, kadr islahatları, korrupsiya ilə mübarizə, şəffaflığın artırılması, kölgə iqtisadiyyatının məhdudlaşdırılması istiqamətində görülən tədbirləri xüsusi qeyd etmək lazımdır".

**"Şişirdilmiş qiymətlərlə satınalmaların qarşısı alınacaq"**

Əli Əsədov qeyd edib ki, dövlət başçısının tapşırığına uyğun olaraq, azad edilmiş torpaqlarda 100 min hektara yaxın ərazidə əkin işlərinin aparılması ölkənin ərzaq təhlükəsizliyi təminatını artıracaq: "Azad edilmiş ərazilərin yaşıl enerji zonasına çevrilməsi yeni SES-lərin yaradılmasına şərait yaradacaq və bu, diqqətdə saxlanılacaq. Qarşıdakı dövrdə büdcə xərclərindən səmərəli istifadə edilməsi, izafi xərclərin qarşısının alınması üçün nəzarətin daha da gücləndirilməsi təmin ediləcək. Şişirdilmiş qiymətlərlə satınalmaların qarşısı qətiyyətlə alınacaq. Dövlət-özəl tərəfdaşlığının təşviqi davam etdiriləcək. Nazirlər Kabineti özünün fəaliyyət proqramı kimi qəbul etdiyi Prezidentin bütün tapşırıqlarının vaxtında və tam icrasını təmin edəcək. Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dərin islahatlar Azərbaycanın iqtisadi qüdrətini daha da artıracaq. Hazırda postpandemiya dövrünə ciddi hazırlıq işləri görülməkdədir".

**"Ordunun ən müasir silah və hərbi texnika ilə təminatı davam etdiriləcək"**

Baş nazir deyib ki, ordunun ən müasir silah və hərbi texnika ilə təminatı davam etdiriləcək: "Ölkəmizin hərbi potensialı və müdafiə qabiliyyəti gücləndirilib. Alınmış hərbi texnikalar Vətən müharibəsində uğurla sınaqdan çıxıb və özünü doğruldub. Qoşunların ən müasir silah sistemləri və hərbi texnika ilə təmin edilməsi üzrə zəruri işlər davam etdirilir və etdiriləcək".

**"Azad olunmuş ərazilərə Böyük Qayıdışla əlaqədar yeni dövrə qədəm qoyulub"**

**Ə.Əsədov bildirib ki, azad olunmuş ərazilərə Böyük Qayıdışla əlaqədar yeni dövrə qədəm qoyulub:** "İşğaldan azad edilmiş ərazilərin bərpası üçün ilkin olaraq dövlət büdcəsindən 2,2 milyard manat vəsait ayrılıb. ANAMA-nın yenidən təşkili işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi işlərinin keyfiyyətcə yeni şəkildə təşkil edilməsindən xəbər verir. Əsas vəzifə işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsidir. Hazırda azad olunmuş ərazilərə Böyük Qayıdışla əlaqədar Azərbaycan tamamilə yeni bir dövrə qədəm qoyub. Bu mərhələdə əsas strateji vəzifə həmin ərazilərin ölkə iqtisadiyyatına sürətli reinteqrasiyasını təmin etməkdən ibarətdir. Bu məqsədlə Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, işğaldan azad olunan ərazilərdə bərpa və yenidənqurma işlərinin aparılması, o cümlədən sosial-iqtisadi, enerji, kommunal, nəqliyyat infrastrukturunun yaradılması, rasional məskunlaşma siyasətinin həyata keçirilməsi və bununla da doğma yurduna qayıdan vətəndaşlara yaşayış və işgüzar fəaliyyət üçün hərtərəfli şəraitin yaradılması nəzərdə tutulur".

İsmayıl Qocayev



## Jurnalistlər ağac əkdi

**Yaşıllıq sahələrinin artırılması, ağac əkininin təşviqi məqsədilə yaz ağacəkmə kampaniyası çərçivəsində növbəti ağacəkmə tədbiri torpaq çərşənbəsi günündə Jurnalistlərin binası qarşısında keçirilib.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Medianın İnkişafı Agentliyinin və KİV nümayəndələrinin iştirakı ilə keçirilən ağacəkmə aksiyasında nazirliyin tinglik sahələrində yetişdirilən 400-ə yaxın meyvə və həmişəyaşıl ağac tingləri əkilib.

Eyni zamanda, öz bağ sahələrində ağac əkmək üçün müraciət edən media nümayəndələrinə tədbir çərçivəsində əlavə meyvə tingləri paylanılıb.

## İcra Hakimiyyəti başçısının müavini işdən azad olunub

**Bakı şəhər İcra Hakimiyyəti (BŞİH) başçısının müavini vəzifəsindən azad edilib.**

Sputnik Azərbaycan-ın məlumatına görə, Fidumə Hüseynovanın adı BŞİH rəsmi saytında aparatın strukturu və İH Başçısının müavinləri bölməsindən də silinib. Onun yerinə hələlik təyinat yoxdur.

## Elçibəy hökumət nümayəndələrini toplayıb, deyib ki...

### Aqil Səmədbəyli: "Bir ailə də imkansızlıqdan bayramı qeyd edə bilməsə, mən rahatlıq tapa bilmərəm"



**Türkiyədə yaşayan tanınmış siyasətçi Aqil Səmədbəyli qayınatası, eks- prezident Əbülfəz Elçibəylə bağlı maraqlı fakt paylaşıb.**

"Şərq" xəbər verir ki, A.Səmədbəyli Feysbukda bunları yazıb: "1993-cü ilin mart ayında Əbülfəz Elçibəy hökumət nümayəndələrini toplayıb, onlara belə deyir: "Bu bayram Azərbaycanda bir ailə də imkansızlıqdan bayramı qeyd edə bilməsə, mən rahatlıq tapa bilmərəm. Dərhal, ölkə üzrə imkansız ailələri müəyyən edəcək və onlara bayramı layiqincə keçirə bilmələri üçün yardım göstərəcəksiniz". Dediyi kimi də olur".

**Samirə**

## Hesablama Palatasına yeni sədr müavini və auditorlar təyin olunub



**Milli Məclisin dünən keçirilən iclasında "Azərbaycan Respublikası Hesablama Palatasının sədr müavininin və auditorlarının təyin edilməsi haqqında" məsələ müzakirəyə çıxarılıb.**

APA-nın məlumatına görə, Milli Məclis sədrinin təqdimatına əsasən, Nəsir İbrahim oğlu Sadıqov Hesablama Palatasının sədr müavini, Cavid Fazil oğlu Bayramov, Hilal Qorxmaz oğlu Hüseynov və Vəfa Allahverən qızı Mütəllimova Hesablama Palatasının auditorları təyin edilib.

*Qeyd edək ki, Hesablama Palatasının sədrinin müavini Adil Məhərrəmov, auditorlar Mehriban Alışanova, Firsənd Qurbanov və Vaqif Həsənov işdən çıxmaqla bağlı ərizə yazıblar.*

## Mart ayı üzrə pensiyaların ödənişi başa çatdırılıb



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən mart ayı üzrə pensiyaların ödənişi başa çatdırılıb.**

Nazirlikdən verilən məlumata görə, martın 5-dən başlayaraq əvvəlcə Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu, martın 16-da isə bölgələr üzrə, eləcə də güzəştli şərtlərlə pensiya hüququna malik şəxslərin pensiyaları ödənilib.

Vətəndaşlar pensiyalarını onlara verilmiş kartlar vasitəsilə müvafiq bankların bankomatlarından əldə edə bilərlər.

## ATƏT sədri Paşinyanla görüşüb

### Regiondakı vəziyyət müzakirə olunub



**İsveçin xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Ann Linde Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşüb.**

APA-nın xəbərinə görə, bu barədə A. Linde "Twitter"də bildirib. Görüş zamanı ATƏT-lə bağlı məsələlər və regiondakı vəziyyət müzakirə olunub.

# Hadrutda ermənilər mat vəziyyətinə salındı

*İki gün öncə Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva və qızları Leyla Əliyeva Füzuli, Xocavənd rayonlarında olublar. Ölkə başçısı səfər zamanı bir sıra mühüm məqamı diqqətə çatdırıb. Eyni zamanda Hadrut qəsəbəsində də olublar. Ali Baş Komandan Hadrutun necə azad edildiyi barədə danışıb:*

"Hadrut qəsəbəsinin işğaldan azad edilməsi böyük əhəmiyyətə malik olan bir əməliyyat idi. Çünki Cəbrayıl rayonundan, Cəbrayıl şəhərindən sonra Hadrutun azad edilməsi hərbi əməliyyatlarımızın davam etdirilməsi üçün xüsusi əhəmiyyətə malik olan hadisə idi.

Hadrutun azad edilməsindən sonra biz Şuşaya istiqamət götürdük. Şuşa əməliyyatının uğurlu keçirilməsi üçün məhz Hadrutu azad etmək önəmli idi. Yenə də düşmənin bizi gözləmədiyi istiqamətdən Şuşaya yaxınlaşdıq. Dağlardan, dərələrdən, sıldırım qayalardan keçərək, o qayaları dırmaşaraq biz Şuşanı işğalçılardan azad etdik. Ona görə Hadrut əməliyyatı dünyanın hərb elmində xüsusi yer tutacaq".

## "Bu, özünəməxsus və zərgər dəqiqliyi ilə həyata keçirilmiş əməliyyat idi"



**Millət vəkili Müşfiq Məmmədli "Şərq"ə açıqlamasında bildirib ki, cənab Prezidentin ailə üzvləri ilə birlikdə işğaldan azad edilmiş torpaqlarımıza növbəti səfəri çox yaddaqalan oldu:** "Ölkə başçısı Hadrut qəsəbəsinin azad edilməsində ordumuzun göstərdiyi qəhrəmanlıqların dünya hərb tarixinə qızıl hərflərlə yazıldığını qeyd etdi. Ali Baş Komandanın "Dəmir yumruğ"u ətrafında birləşmiş xalq, son texnologiyalar ilə silahlanmış və hər kəsi heyrətə salacaq əməliyyat mexanizmlərini həyata keçirən ordunu gördük. Həqiqətən də 30 il ərzində həyata keçirilmiş islahatlar, ordunun yenidən qurulması qələbəmizin əsas qüvvəsi oldu.

Hadrutun azad olunmasının özəlliyi ondan ibarət idi ki, Azərbaycan XTQ-lər və pilotsuz uçuş aparatları ilə birlikdə qısa müddət ərzində düşmənin çoxsaylı qüvvəsini və texnikalarını sıradan çıxartdı. Beləliklə, ermənilər mat vəziyyətə salındı. Hadrut dünya hərb tarixində özünəməxsus və zərgər dəqiqliyi ilə həyata keçirilmiş əməliyyat idi".

**Parlament üzvü vurğulayıb ki, cənab Prezidentin bu səfərdə səsləndirdiyi fikirlər xüsusi önəm kəsb edir:** "Ölkə başçısının istər Azıx mağarasında, istərsə də Tuğ qəsəbəsində olarkən söylədikləri çox mühümdür: "Bu torpaqlar ermənilərin olsaydı, yaşayış məntəqələri belə vəziyyətə salınardı?".

Uçuq-sökük məktəb binası və digər mədəni obyektlərin qalmaması ilə ermənilərin torpaqlarımızı işğal etdiyi, özgə mülkiyyətinə daxil olduqları bəlli olur. Prezident və ailə üzvlərinin səfəri zamanı erməni vandallarının qaniçən və oğru olduqları dünya ictimaiyyətinə bir daha çatdırılır.

Səfər bir daha onu göstərdi ki, Azərbaycan öz torpaqlarını azad edib və quruculuq işlərinə başlayıb. Bütün bunlar ölkəmizin Cənubi Qafqazın qurucu, yaradıcı və ən aparıcı dövləti olduğunu sübut etdi. Artıq Cənubi Qafqazda yeni konfiqurasiyanın formalaşmasına təkan verən və geostrateji məkanda isə söz sahibi olan bir dövlətik. Azərbaycanın işğaldan azad edilmiş torpaqları sürətlə inkişaf edəcək və həmin ərazilərə böyük qayıdış olacaq.

Prezidentin bu səfəri də qeyd etdiyimiz proseslərin dünya ictimaiyyətinə bir bəyanıdır".

**Yeganə Bayramova**

# "Hesablama Palatası fəaliyyətsizdir"



## Cümşüd Nuriyev: "Ölkəmizdə korrupsiyaya uğramış məmur təbəqəsi yetişib"

**Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini vəzifəsindən azad edilib. Məlumata görə, Fidumə Hüseynova istefa üçün özü ərizə ilə müraciət edib.**

Bakı Şəhər İcra Hakimiyyətinin rəsmi saytında onun adı aparatın strukturu bölməsindən də çıxarılıb.

**Siyasi elmlər doktoru, politoloq Cümşüd Nuriyev "Şərq"ə bildirib ki, ölkəmizdə məmurların iş prinsipinə nəzarətdə Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) rolu danılmazdır:** "Azərbaycanda korrupsiya o qədər yüksək səviyyədə kök salıb ki, bunun aradan qaldırılması üçün güclü iş görmək lazımdır. Ölkəmizdə məmurların iş fəaliyyətinə dair islahatlar birmənalı şəkildə aparılmalıdır. Vətəndaşların əsasən narazı olduğu qurum icra strukturlarıdır. Birmənalı olaraq icra hakimləri ilə bağlı həddindən çox narazılıq var.

Digər qurumlarla bağlı da xoşagəlməz hallar olur. İcra hakimiyyətləri o qədər korrupsiyalaşıblar ki, işçilər 2-3 ildən sonra 300 minlik maşında gəzir, 1 milyonluq villalarda yaşayırlar. Bütün bunlar ancaq dövlətdən oğurlanan pulların hesabına alınır".

**C.Nuriyev qeyd edib ki, Azərbaycanda Hesablama Palatasının rolu demək olar, yoxdur:** "Milli Məclisin bu qurumu niyə fəaliyyət göstərmir, bilmirəm. Hesablama Palatası sadəcə hansısa nazirliklərdə baş verən oğurluq faktını üzə çıxarır. Lakin onlar çox gözəl bilirlər ki, Azərbaycanda vəsaitlər Maliyyə Nazirliyinin ayırdığı təyinatı üzrə xərclənmir. Ölkəmizdə korrupsiyaya uğramış məmur təbəqəsi yetişib. Nə qədər ki, məmurlar qohum-əqrəbalarını vəzifəyə gətirəcəklər, korrupsiyanın kökünü kəsmək mümkün olmayacaq.

Dövlət bu sahədə konkret addımlar atmalıdır".

**Yeganə Bayramova**

*Qarabağda erməni əhalisinə silah daşımaq hüququ verilir. Separatçılar bununla bağlı "qanun layihəsi" irəli sürüb. İndiyə qədər keçmiş hərbçilərə ov tüfəngi daşımaq hüququ verilirdi. Lakin indi daha çox insanın silah daşımasına icazə verilir.*



Bunu özünümüdafiə məqsədilə izah edirlər. Bu da Qarabağdakı separatçı-terrorçuların əhalini "özünümüdafiə" adı altında Azərbaycana qarşı silahlandırması deməkdir. Bəs, Azərbaycan tərəfi buna görə hansı addımlar atmalıdır? Bütün

# Türkiyə də, Rusiya da səssiz qalmayacaq

## Qarabağda erməni əhalisinin silahlandırılması yeni təxribatlara yol aça bilər

bunlar regionda yeni təxribatlara yol aça bilərmi?

**Sualımızı cavablandıran politoloq Tural İsmayılov "Şərq"ə açıqlamasında bildirib ki, bundan sonra, ümumiyyətlə, Ermənistanın atacağı hər bir təxribat addımı təkcə Azərbaycana qarşı yönəlmiş sayılmayacaq.** Politoloqun sözlərinə görə, 10 noyabr razılaşmasından sonra Ermənistanın regionda atacağı istənilən təxribatçı və revanşist addımların hamısı həm də birbaşa Rusiya dövlətinə qarşı yönəlmiş hesab olunmalıdır: "Qeyd edim ki, 10 noyabr sazişinin ümumi müddəalarında da bu öz əksini tapıb. Beləliklə, əgər Ermənistan bundan sonra ov tüfənglərindən əlavə hansısa silahlandırma ilə təchiz olunacaqsa və bu birbaşa Azərbaycan dövlətinə qarşı yönələcəksə, burda təkcə Ermənistan deyil, həm də Rusiya dövləti məsuliyyət daşıyacaq".

**T.İsmayılov qeyd edib ki, Azərbaycan tərəfi bununla bağlı öz bəyanatlarını dəfələrlə səsləndirib:** "Bilirsiniz ki, 10 noyabr bəyanatından sonra da Ermənistan rəsmi dairələrinin bəzi nümayəndələri Dağlıq Qarabağa qanunsuz səfər etdi. Azərbaycanın Xarici İşlər Nazirliyi də bununla bağlı sərt bəyanatını səsləndirdi. XİN rəhbəri Ceyhun Bayramov ATƏT-in fəaliyyətdə olan sədri Ann Lindeni qəbul edərkən vurğuladı ki, Ermənistana tikinti maşınları ilə qanunsuz şəkildə əsgər daşınır. Erməni əsgər valideynləri də öz övladlarının Qarabağa qanunsuz şəkildə göndərilməsinə qarşı etirazlar edirdi. Ona görə də düşünürəm ki, bununla bağlı mütləq sərt addımlar atılmalıdır. Özü də təkcə bu məsələdə Rusiyaya qarşı açıq demarş yoxdur. Ağdamda birgə monitorinq mərkəzində təmsil olunan Türkiyəyə qarşı da Ermənistan müəyyən addım atmış hesab olunur".

**Politoloq əlavə edib ki, bundan sonra bizim ölkə üçün müharibə şəraiti yoxdur: "Azərbaycan Dağlıq Qarabağ problemini artıq həll olunmuş hesab edir.** Cənab prezident də dəfələrlə bütün açıqlamalarında bu məsələyə toxunub. Ona görə də Ermənistana edilən silah yardımları bizim dövlətimizə, əsgərimizə qarşı yönələcəksə və yenidən regionda hərbi vəziyyət rejimi bərpa olunacaqsa, bunun birbaşa günahkarı, təbii ki, Ermənistan və eyni zamanda 10 noyabr razılaşmasının əməl olunmasına nəzarət edən Rusiya sülhməramlıları bir növ məsuliyyət daşıyacaqlar. Ona görə də düşünürəm ki, hələ Ermənistan uzun müddət hansısa təxribatçı cəhdlərinə getsin. Ölkədə səslənən ümumi revanşist açıqlamalar isə daxili auditoriyanın fikrini yayındırmağa hesablanmış ucuz şoudan başqa bir şey deyil".

**Aynurə Pənahqızı**

# Azərbaycan media ictimaiyyətinə ağır itki üz verib



## MEDİA Teymur Əhmədovun vəfatı ilə bağlı nekroloq yayıb

**Medianın İnkişafı Agentliyi (MEDİA) "Respublika" qəzetinin baş redaktoru Teymur Əhmədovun vəfatı ilə əlaqədar nekroloq yayıb.**

*"Şərq"in məlumatına görə, nekrologda deyilir:*

"Azərbaycan media ictimaiyyətinə ağır itki üz verib. "Respublika" qəzetinin baş redaktoru, tanınmış alim, filologiya üzrə elmlər doktoru Teymur Əkbər oğlu Əhmədov 2021-ci il mart ayının 16-da ömrünün 90-cı ilində vəfat edib.

Teymur Əhmədov 25 dekabr 1930-cu ildə Şəmkir şəhərində anadan olub.

Ədəbiyyata böyük maraq göstərən Teymur Əhmədov Bakı Dövlət Universitetinin filologiya fakültəsində, Azərbaycan Elmlər Akademiyasının Nizami adına Dil və Ədəbiyyat İnstitutunun aspiranturasında təhsil alıb.

Görkəmli jurnalist 1965-1968-ci illərdə "Azərbaycan" jurnalı redaksiyasında şöbə müdiri, 1968-ci ildə Nizami adına Dil və Ədəbiyyat İnstitutunda baş elmi işçi, cənubi Azərbaycan ədəbiyyatı şöbəsində müdir müavini, 1988-ci ildən aparıcı elmi işçi olub.

1990-1991-ci illərdə "Vətən həsrəti", 1992-1993-cü illərdə "Hikmət", "Yeni fikir" qəzetlərinin baş redaktoru işləyib.

1995-ci ildən "Respublika" qəzetinin baş redaktoru,1996-cı ildən Ədəbiyyat İnstitutunda Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri kimi çalışıb.

Teymur Əhmədovun Azərbaycan jurnalistikasının inkişafı sahəsində göstərdiyi xidmətlər və səmərəli əməyi yüksək dəyərləndirilərək Azərbaycan Ali Soveti Rəyasət heyətinin fəxri fərmanı, akademik Yusif Məmmədəliyev adına mükafat və medalla qiymətləndirilmiş, 1996-cı ildə "İlin layiqli ziyalısı" fəxri adına layiq görülmüş, Həsən bəy Zərdabi və Beynəlxalq Atatürk Mükafatları, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə 2002-ci ildə "Tərəqqi" medalı, 2020-ci ildə isə müstəqil Azərbaycan Respublikasının ali dövlət mükafatlarından olan "Şöhrət" ordeni ilə təltif edilib.

Tanınmış ziyalı, qayğıkeş və səmimi insan Teymur Əkbər oğlu Əhmədovun xatirəsi media ictimaiyyətinin və onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

**Allah rəhmət eləsin!".**

Azərbaycanın Əsgəran rayonunda Rusiya Müdafiə Nazirliyinin mütəxəssisləri 60 yerlik blok-modul şəhərciyi salıblar. Bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat yayıb. Qeyd edilib ki, bu, sülhməramlı kontingentin hərbi heyəti üçün tikilən sayca doqquzuncu şəhərcikdir.




# Ruslara artıq 9-cu şəhərcik tikildi

## Sülhməramlıların ərazilərimizdə möhkəmlənməsi real təhlükədir

Ərazidə şəxsi heyətin rahat yaşayışı üçün lazımi şərait təmin edilib. Şəhərcikdə yeməkxana, hamam və camaşırxana məntəqələri fəaliyyət göstərir. Eyni zamanda şəhərcik enerji təchizatı, isitmə, su təchizatı, kanalizasiya və digər bütün zəruri komponentlərlə təchiz olunub.

Yaşayış yerlərinə mebel, məişət texnikaları yerləşdirilib, süni örtüklü idman zalı yaradılıb. Niyə?! Xeyirdimi?! Bir halda ki, beş ildən sonra çıxıb gedəcəklər, onda nəyə lazımdır bu qədər dəmdəsgah, cah-cəlal?! Yəni Rusiyanın iqtisadiyyatı bu qədər güclüdür ki, pulunu verməyə yer tapmır?! Ya da planlar başqadır...

**Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Sərdar Cəlaloğlu Kremlin məkrli siyasətini "Şərq"ə şərh etdi:** "Məqsəd rusları burada daha çox saxlamaqdır. Ona görə də Qarabağa köçürülən ermənilərin sayı süni surətdə artırılır, terrorçular silahlandırılır. Əlbəttə,

*"Ona görə də Qarabağa köçürülən ermənilərin sayı süni surətdə artırılır, terrorçular silahlandırılır"*

Azərbaycan xalqı bunun qəti əleyhinədir.

Hökumət isə beynəlxalq məsələləri nəzərə alaraq hələ ki, dözümlülük nümayiş etdirir. Dediyim kimi, ruslar erməniləri 5 ildən sonra da Qarabağdan çıxarmaq istəmirlər.

Və ümumiyyətlə, sabitlik, sülhü təmin etmək fikirləri yoxdur. Əksinə, münaqişəni qızışdırıb Cənubi Qafqaz xalqlarının dinc yola getməsinin qarşısını almaq və region ölkələrinə nəzarət etmək istəyirlər".

**S.Cəlaloğlunun sözlərinə görə, belə bir təşəbbüs başından bəri qanunsuzdur:** "Rusların ərazimizdə qalması bizim üçün real təhlükədir. Əslində Rusiya beynəlxalq hüquq normalarına zidd hərəkət edir. Çünki sülhməramlılar iki dövlət arasındakı münasibətləri tənzimləyə bilərlər.

Onların heç bir halda hansısa dövlətin daxili işinə qarışmaq ixtiyarları yoxdur. Moskva beynəlxalq hüquq normalarını pozmaqla, separatçıları dəstəkləməklə Azərbaycanın parçalanmasına çalışır. Ona görə də torpaqlarımızdan çıxarılmalıdırlar".

**Kənan Novruzov**

# "YAŞAT" şəhid balalarını Türkiyəyə apardı

**"YAŞAT" Fondunun təşəbbüsü ilə şəhidlərimizin övladları Türkiyə Respublikasına səfər ediblər. Səfərin məqsədi Ankara şəhərində 17-18 mart tarixində təşkil olunacaq "Övladlarımız Tək Ürək" 18 Mart şəhidlərini Anma və Çanaqqala Dəniz Zəfərinin 106-cı ildönümünə həsr olunmuş Proqramında iştirakdır.**



## Qarabağ qazisi də fondun gördüyü işləri təqdir edir

Proqram Türkiyənin Vətən Ulduzları Fondunun təşkilatçılığı ilə reallaşdırılacaq. Proqramın məqsədi Çanaqqala zəfərinin qürurunu yaşadan, Vətənin birliyi, müstəqilliyi və bütövlüyü uğrunda canlarını fəda etmiş əziz şəhidləri anmaqdır. Tədbirə Türkiyə, Azərbaycan, Türkmənistan, Şimali Kiprdən olan şəhidlərin övladları dəvətlidirlər. Tarixdə ilk dəfədir təşkil olunan bu cür Proqramda türk dövlətlərindən olan şəhidlərin övladları "tək ürək" adı altında bir araya gələcəklər. Bu isə öz növbəsində onların biri-birləri ilə kommunikasiya imkanlarını artırmağa, onlara mənəvi dəstəyi təmin etməyə imkan verəcək. Proqram çərçivəsində Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün məzarı - Anıtqəbrə ziyarətin, müxtəlif tarixi və etnoqrafik məkanlara, muzeylərə ekskursiyaların, o cümlədən sərgilərin və musiqili tədbirlərin təşkili nəzərdə tutulur. Xatırladaq ki, 10-13 mart tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyevin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyə Respublikasına səfər edib. Səfər çərçivəsində Türkiyə Silahlı Qüvvələrinin nəzdində fəaliyyət göstərən fondlarla "YAŞAT" Fondu arasında əməkdaşlığa bağlı razılıq əldə olunub. Məhz şəhidlərimizin övladlarının müvafiq Proqramda iştirakı əməkdaşlıqla bağlı əldə olunmuş razılıq tədbirləri çərçivəsində baş tutacaq. Tədbirə Vətən müharibəsi şəhidlərimizin 17-22 yaş aralığında olan övladları qatılıblar.

**Mövzu ilə bağlı fikirlərini bölüşən "Qarabağ Qaziləri" İctimai Birliyinin sədri Asəf Əliyev bildirib ki, "YAŞAT" Fondunun bu təşəbbüsü çox təqdirəlayiqdir.** Onun sözlərinə görə, onları qısa müddətdə yaransa da bir çox işlər görüb: "Qısa müddətdə bu fond yaransa da, hazırda böyük işlər görürlər. Bildiyimiz kimi, fonda ianələr daxil olur. Onlar da bacardıqlarını edirlər. Kimisini burda müalicə edirlər, kimisini də xarici ölkəyə göndərirlər. Bundan öncə də qazilərimizi Türkiyə müalicə göndərmişdilər. İndi isə şəhidlərimizin övladlarının Türkiyəyə səfərinin təşkili olunması əlbəttə ki, çox təqdirəlayiqdir. Həm də deyərdim ki, qürurvericidir. Ona görə də onları bu işdə dəstəkləyirəm və işlərinin daha uğurlu olmasını diləyirəm. Bundan sonra da davamlı şəkildə belə layihələri həyata keçirmələrini arzu edirəm".

**Aynurə Pənahqızı**

# "Silahlar yenidən işə düşə bilər"

## Əziz Əlibəyli: "Verdiyimiz mesajların nəticəsi olmayacağı təqdirdə rəsmi Bakı anti-terror əməliyyatına başlayacaq"



**"Prezident İlham Əliyevin bu dəfə məhz Qarabağa (Dağlıq) getməsi ayrıca bir mərhələdir. Davamı Xocalı, Xankəndi...".** - Bu sözləri Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəisi, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli özünün "Facebook" səhifəsində yazıb. Əlbəttə, səslənən fikirlər ümidlərimizi, inamımızı artırır. Görünür, hazırda düşmən tapdağında olan torpaqlarımıza qayıdacağımız gün uzaqda deyil...

**Ə.Əlibəyli "Şərq"ə açıqlamasında fikrini belə izah etdi:** "Hazırda böyük ölkələrin Suriyada, Livanda, Ukraynada mübahisələri gedir. Amma Azərbaycanda belə deyil. Çünki biz məsələni dar çərçivədə həll etdik. Prezident İlham Əliyevin "Dağlıq Qarabağ" ifadəsindən imtina etməsi problemin geridə qaldığını göstərir. Lakin Ermənistandakı separatçı qüvvələr revanşist meyillərini artırıblar. Ordumuzun poliqona yığılmasından sonra dövlət başçısının Qarabağa səfəri, dağlıq əraziyə getməsi və təzyiqi artırması heç də təsadüfi deyil. Bu o deməkdir ki, biz məsələni 5 ildən də tez həll etməyə çalışırıq. Üstəgəl, təlimlərin anti-terror səciyyəsi daşıdığını da nəzərə alsaq, deməli, silahlar yenidən işə düşə bilər. Verdiyimiz mesajların nəticəsi olmayacağı təqdirdə rəsmi Bakı anti-terror əməliyyatına başlayacaq. Və hər ötən gün bu ehtimal daha da artır".

**Kənan**



# Müseyib son gülləsi bitənədək döyüşüb

## Mayorun bacısı: “Şəhid olanda ətrafında 70-dən çox erməni meyiti sayıblar”





Məhəmməd Fizuli hələ əsrlər əvvəl yazırdı: "Ya şəhid olmaq gərək, ya intiqam almaq". Biz Vətən müharibəsində həm şəhid verdik, həm də intiqam aldıq. Əslində elə həmin qəhrəmanlarımız sayəsində qisasımızı aldıq və ərazi bütövlüyümüzü təmin edə bildik. Onlar torpaq uğrunda qan tökdülər, can verib, can aldılar. İndi hər biri cənnətdə, ruhları isə Qarabağdadır. Mayor Müseyib Zeynalov da 44 günlük hərbi əməliyyatlarda şəhidlik şərbətini içdi. Bu igid 1978-ci ildə Salyan rayonunda anadan olub.

1992-ci ildə C.Naxçivanski adına hərbi liseyə qəbul olub və dörd il sonra oranı bitirib. 2000-2003-cü illərdə Gəncə və Murovda yerləşən N saylı hərbi hissədə taqım komandiri vəzifəsində xidmətini yerinə yetirib. Minlərlə peşəkar zabitin yetişməsində rolu olub. Bu illər ərzində 3-cü dərəcəli, 2-ci dərəcəli və 1-ci dərəcəli qüsursuz xidmətə görə medalları ilə təltif olunub.

**Cənab mayorun bacısı Ulduzə xanım qardaşının döyüş yolu barədə "Şərq"ə danışdı:**

"Sentyabrın 29-da müharibəyə yola düşdü. Mənim xəbərim yox idi. Bu barədə bacımdan eşitdim. Tez qardaşıma zəng vurdum. Dedi ki, narahat olma, hər şey yaxşıdır. Özümü saxlaya bilməyib ağladım. Sözlər boğazımda ilişib qaldı. Elə bil nəsə olacağı ürəyimə dammışdı. Bir neçə dəfə danışa bildik. Biz zəng edəndə telefonu sönülü olurdu. Ardınca özü zəng edirdi. Sonralar mən səsini eşidə bilmədim. Amma anamla danışırdı. Müseyib general Polad Həşimov şəhid olduğu gün özünə yer tapa bilmirdi. Çox darıxırdı. Çünki Aprel döyüşlərində birlikdə vuruşmuşdular. Qardaşım general-mayor barədə həmişə fərəhlə, ağızdolusu danışırdı. Həmin hərbi əməliyyatlardan sonra istefaya çıxmışdı. Amma müharibə başlayanda dayana bilmədi və yenidən mundir geyindi".

**Ulduzə xanımın sözlərinə görə, mayor müharibədə böyük qəhrəmanlıq göstərib:**

"Sonuncu dəfə oktyabrın 29-da əlaqə saxladıq. Anama Qubadlıda olduğunu dedi. Söylədi ki, buralar çox gözəldi, müharibədən sonra ev alıb, yaşayarıq. Daha xəbər tuta bilmədik. Sadəcə, qızğın döyüşlər getdiyi və Müseyibgilin dəstəsinin şəhid olması ilə bağlı məlumat yayılırdı. İnanmırdıq.

Demə, həqiqət payı var imiş. Eşitdiyimizə görə, polkovnik-leytenant Nail Orucovla birlikdə dəstəyə rəhbərlik edibmiş. Minamyot atəşi nəticəsində həmin komandir şəhid olduqdan sonra qardaşım komandaya təkbaşına rəhbərlik edib.

Təpələrdən birində ermənilərlə qarşı-qarşıya gəliblər. Qızğın döyüş olub. Qardaşım əsgərlərini qorumaq üçün PK ilə irəli atılıb və gülləsi bitənədək döyüşüb. Minamyot partlaması ilə şəhadətə qovuşub. Biz bu xəbəri noyabrın 5-də bildik. Düz beş gün neytral ərazidə qaldıqdan sonra, nəhayət, kömək qüvvə gəlib və çıxarılıb. Ətrafında 70-dən çox erməni meyiti sayıblar. O, çox gülərüz insan idi. Beş bacının bir qardaşı, arxamız, dayağımız idi.



Qardaşım Aprel döyüşlərində fədakarlığı nəzərə alınaraq "Qüsursuz xidmətə görə" medalı ilə təltif olundu. Ölümündən sonra isə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medallarına layiq görülüb".

**Kənan Novruzov**

# Mesajlar bir-birini tamamlayır

## Azərbaycan Ordusu daha müasir silahlarla təchiz olunacaq



**Azərbaycan Ordusunun bundan sonra da müasir silahlar və hərbi texnika ilə təmin edilməsi üçün zəruri işlər davam etdiriləcək.**

Bu barədə Baş nazir Əli Əsədov parlamentin dünənki iclasında bildirib. Onun sözlərinə görə, Azərbaycanın aldığı müasir silahlar Vətən müharibəsində özünü uğurla doğruldub. Ordumuzun müasir hərbi avadanlıqlarla təchizi təbii ki, lazımlı, bəlkə də ən vacib amildir.

Bəs bu açıqlamaları Ermənistan tərəfinə bir mesaj kimi dəyərləndirmək olarmı?

**Hərbi ekspert Ədalət Verdiyev "Şərq"ə açıqlamasında bildirib ki, bəzi silahlarımız sıradan çıxarılıb:** "Bu baxımdan onların yeniləri və müasir sistemlərlə əvəz olunması təqdirəlayiq addımdır. Ordumuzun müasir silahlarla təchiz edilməsi həmçinin Ermənistana bir mesajdır.

Onlar büdcələrinə uyğun olaraq hərbi texnikalar almaq üçün vəsait ayıra bilmirlər. Hətta bəzi deputatlar Ermənistan ordusuna nə üçün bu qədər vəsait ayrıldığını anlamadıqlarını dilə gətiriblər".

**Ə.Verdiyevin sözlərinə görə, Prezident İlham Əliyev Azərbaycanda türk ordusunun kiçik bir modelinin yaradılacağına dair bəyanat səsləndirib:**

"Ölkə başçısı Türkiyə modelinə uyğun silah sistemlərinin əldə ediləcəyi siqnalını vermişdi. Odur ki, bu mesajlar bir-birini tamamlayır. Ümumilikdə bütün proseslər ordumuzun daha da ciddi potensial əldə edərək regionda liderliyini qorumağa hesablanmış addımlardır".

**Yeganə**

# Ağdamda 6 nəfər minaya düşüb

## İki qardaş ölüb, ağır yaralananlar var





**Dünən saat 16:00 radələrində 6 mülki şəxsin Ağdam rayonunun işğaldan azad olunmuş ərazisində olarkən piyada əleyhinə minaya düşməsi faktı ilə bağlı rayon prokurorluğuna məlumat daxil olub.**

Ağdam Rayon Prokurorluğundan verilən məlumata görə, aparılmış araşdırmalarla Hüseynov Akif Muxtar oğlu, Hüseynov Anar Akif oğlu və Abdulov Bəhruz Nadir oğlunun qeyd edilən ərazidə minaya düşmələri nəticəsində çoxsaylı ağır dərəcəli bədən xəsarətləri almaları, Hüseynov Razi Akif oğlu və Hüseynov Bayram Akif oğlunun aldığı xəsarətlərdən həlak olmaları, azyaşlı Hüseynov Hüseyn Razi oğlunun isə hər hansı xəsarət almaması müəyyən edilib.

Prokurorluq və polis əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib, məhkəmə-tibb ekspertizası təyin edilmiş, digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

*Faktla bağlı Ağdam Rayon Prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və ya aparma), 116.0.6 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.7 (qəsdən iki və ya daha çox şəxsi öldürmə) və digər maddələri ilə cinayət işi başlanılıb.*

*Hazırda prokurorluq əməkdaşları tərəfindən intensiv istintaq hərəkətləri həyata keçirilir.*

# Yalandan ajiotaj yaradılır

## Azərbaycan vaksindən o zaman imtina edə bilər ki, ÜST mənfi rəy versin



**Avropa ölkələrində vaksinin çox ciddi yan təsirləri qeydə alınıbsa, Azərbaycan da bu vaksindən imtina etməlidirmi?**

**Norveç Dərman Preparatları Agentliyinin baş həkimi Siqurd Hortemo və Norveç İctimai Səhiyyə İnstitutu COVID-19 əleyhinə "AstraZeneca" vaksini ilə bağlı narahatlıq doğuran məlumat yayıb. Məlumata görə, "AstraZeneca" vaksini vurulmuş şəxslərin ağciyər arteriyasında yüksək tromboemboliya (qan damarının laxta ilə tıxanması), venaların trombozu və ya trombosit səviyyəsinin düşməsi kimi simptomlar yaranıb.**

Danimarka və Norveçin "AstraZeneca"nın tətbiqini dayandırmasından öncə Avstriya qanın laxtalanmasının pozulması və ağciyər arteriyasında tromboemboliya səbəbindən ölüm faktını araşdırması üçün bu peyvəndin istifadəsinə ara verib.

Qeyd edək ki, Azərbaycan da Çinin "CoronaVak" peyvəndindən sonra "AstraZeneca" vaksininin tətbiqinə hazırlaşır. Bununla bağlı Baş nazir Əli Əsədovun sərəncamı var. Koronavirus (COVID-19) infeksiyasının Azərbaycan Respublikasının ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması və bu sahədə immunizasiya tədbirlərinin həyata keçirilməsi məqsədilə imzalanmış sərəncama görə, "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə GAVİ ALLİANCE arasında imzalanmış dərman vasitəsinin tədarükünə dair 2020-ci il 18 sentyabr tarixli Sazişə əsasən, İsveç Krallığının "AztraZeneca" Şirkətinə məxsus 432 000 doza COVID-19 vaksin dərman vasitəsinin Azərbaycana idxalı 180 gün müddətində həyata keçirilməlidir.

Lakin Avropa "AstraZeneca"dan imtina edir. Niderland, İspaniya, Almaniya, Fransa və İtaliya da "AztraZeneca" vaksininin tətbiqini dayandırıb. İtaliyanın Biella şəhərinin prokurorluğu isə peyvənd vurulmuş musiqi müəlliminin ölümündən sonra "AstraZeneca" vaksin partiyasına həbs qoyub.

**Azərbaycan Dövlət Tibb Universitetinin professoru Adil Qeybulla "Şərq"ə açıqlamasında qeyd etdi ki, Azərbaycan vaksindən o zaman imtina edə bilər ki, onun zərəri barədə Dünya Səhiyyə Təşkilatı rəy versin:**

- "AstraZeneca" ABŞ-ın Oksford Universitetinin tədqiqatçıları tərəfindən yüksək səviyyədə hazırlanmış vaksindir. İngiltərədə bu vaksin 20 mindən çox insana vurulub. Və cəmi 3 nəfərdə yan təsirlər müşahidə edilib. Hesab edirəm ki, bu bir ajiotajdır. Azərbaycan o zaman bu vaksindən imtina edə bilər ki, ÜST onunla bağlı mənfi rəy versin və qadağan etsin. ÜST-nin vaksinə dair müvafiq rəyi olmadan ondan imtina etmək doğru deyil. Vaksindən imtina üçün əvvəlcə məlumatların təsdiqlənməsi gərəkdir.

A.Qeybulla bildirdi ki, Azərbaycanın koronavirus peyvəndini müxtəlif şirkətlərdən almasının səbəbi gərəkən miqdarda vaksin istehsal edilməməsidir:

- Koronavirus əleyhinə Azərbaycanın əvvəlcə danışıq apardığı şirkətlər vaksinləri verə bilmədi. Azərbaycan çətin vəziyyətdə qaldı. Yenə də qardaş Türkiyənin köməyi ilə Çinin "CoronaVak" peyvəndini ölkəyə gətirə bildik. Vaksin istehsalı çox çətin bir prosesdir. Vaksin üçün material lazımdır. Ona görə də şirkətlər lazımi dozada vaksin istehsal edə bilmir. Dövlətlər məcburdur, müxtəlif şirkətlərdən vaksin alsınlar. Vaksin istehsal olunduqca onu almağa çalışırlar. Eləcə də Azərbaycan.

**A.Qeybulla koronavirus əleyhinə peyvəndin orqanizmdə yan təsirlər yarada biləcəyi məsələsinə də toxundu:**

- Vaksin ölü virusdur. O, orqanizmdə ciddi fəsad yarada bilməz. Bununla belə peyvəndləmədə iştirak edən şəxslər həkim məsləhəti alsalar yaxşıdır. Məsələn, anti-kor testi də verilə bilər, bədənin immun qabiliyyətinin müəyyənləşməsi üçün. Müəyyən dərman preparatlarına allergik reaksiyası, ümumiyyətlə, allergiyası olanlar ehtiyatla davranmalıdır. Amma hətta belə insanlara da fon yaradılaraq vaksin vurula bilər.

Ümumdünya Səhiyyə Təşkilatı isə "AstraZeneca" vaksininin təhlükəsi barədə bütün siqnallar üzrə aparılan analizin nəticələrinin həftə ərzində məlum olacağını açıqlayıb. Bunu RİA Novosti-yə ÜST-nin rəsmi nümayəndəsi Marqaret Harris bildirib. Buna rəğmən qurum koronavirus əleyhinə vaksinasiyanın mümkün qədər sürətli aparılmasını məsləhət görüb. Bu barədə isə ÜST-nin İmmunizasiya və Vaksin Departamentinin rəhbəri Ketrin O`Brayen Avroparlamentin komitə iclasının dinləməsində danışıb. O, vaksinin təhlükəli olduğu barədə siqnallardan deyil, peyvənddən qabaq testdən keçmək məsələsinə toxunub: "ÜST bu barədə dəqiq mövqe bildirib - belə bir tövsiyə yoxdur. Peyvənddən öncə insanların testdən keçirilməsi zərurəti və ya tələbi vaksin alınmasında onlar qarşısına yeni bir sədd çəkir. Yoluxanların heç də hamısında xəstəliyə qarşı uzunmüddətli immunitet yaranmayacaq. Yüksək risk qruplarından başlayaraq vaksinasiyanı mümkün qədər sürətli davam etdirmək məsləhətdir".

**Məlahət Rzayeva**

## General qəsdən adam öldürmə cinayətində təqsirləndirilir

### Rövşən Əkbərovun nədə ittiham olunduğu məlum olub



**Baş Prokurorluq ehtiyatda olan general-leytenant Rövşən Əkbərovun həbs edilməsi ilə bağlı xəbərə münasibət bildirib.**

Qurumun mətbuat xidmətindən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, R.Əkbərovun həbs edilməsi barədə yayılan xəbərlər doğrudur.

Qeyd olunub ki, ictimaiyyətə daha sonra ətraflı məlumat veriləcək.

Xatırladaq ki, R.Əkbərovun həbs edildiyi və barəsində məhkəmə tərəfindən 4 aylıq həbs qətimkan tədbiri seçilməsi ilə bağlı məlumatlar yayılıb.

Sabiq birlik komandiri, ehtiyatda olan general-leytenant Rövşən Əkbərovun nədə ittiham olunduğu da məlum olub.

R. Əkbərov Ukraynada qəsdən adam öldürmə cinayətində təqsirləndirilir.

*Nəsimi rayon Məhkəməsində hakim Azər Tağıyevin icraatında Rövşən Əkbərov barəsində istintaq orqanının təqdimatına baxılıb və barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib.*

## Ata Abdullayev qolları qandallı göründü




**Özünü videobloger kimi təqdim edən Ata Abdullayevin həbsindən sonra yeni videogörüntüləri yayılıb.**

"Report"un xəbərinə görə, videogörüntülər sosial şəbəkələrdə paylaşılıb.

Görüntülər A.Abdullayev Səbail Rayon Məhkəməsindən təcridxanaya aparılarkən çəkilib.

Videokadrlarda A.Abdullayevin anası da yer alıb.

*Qeyd edək ki, ötən həftə A.Abdullayevin barəsində 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib.*

*A.Abdullayev Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) əməkdaşları tərəfindən saxlanılıb. Mediada onun hədə-qorxu ilə tələb etmədə şübhəli bilinərək saxlanıldığı barədə məlumatlar yayılıb.*

## Yoluxanların sayı 1000-ə yaxınlaşdı

### 309 nəfər müalicə olunub, 12 nəfər isə vəfat edib




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 980 yeni yoluxma faktı qeydə alınıb, 309 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 12 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 241 651 koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 231 370 nəfər müalicə olunaraq sağalıb, 3 298 nəfər vəfat edib, aktiv xəstə sayı 6 983 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 10 453, ötən müddət ərzində isə ümumilikdə 2 726 470 test aparılıb.*

# Bəzi televiziyalarda dil normaları pozulur

### Möhsün Nağısoy: "Bununla bağlı qurumlara cərimə tətbiq olunmalıdır"

**Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru Sevinc Əliyeva mətbuata açıqlamasında televiziya məkanında ədəbi dilin fonetik, leksik, qrammatik normalarına əməl olunmadığını söyləyib.**

O deyib ki, yerli-yersiz alınma sözlərdən istifadə və cümlədə söz sırasının pozulması halları var: "Bu da aparıcıların nitqində ciddi və yolverilməz məsələdir. Biz də monitorinq mərkəzi olaraq bu məsələlərlə bağlı tövsiyə və təkliflərimizi hazırlayırıq.



Müşahidələr aparılır və xəbərdarlıq olunmaqla dövlət başçısının təsdiq etdiyi kimi cərimələr nəzərdə tutulur".

**Məsələni "Şərq"ə dəyərləndirən Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylunun fikrincə, bununla bağlı qurumlara cərimə tətbiq olunmalıdır:**

"Artıq Milli Məclis də fonetik normanın pozulmasına görə qərar qəbul etdi. Qəzetlərdə, saytlarda, digər kütləvi informasiya vasitələrində sözlər səhv yazılırsa, cərimə tətbiq olunur. Növbəti qərar isə leksik, ya da qrammatik normanın pozulmasına görə qəbul edilə bilər".

**Samirə Ərəblinski**

# Bayden ən böyük səhvini etdi

## Rusif Məmmədsoy: “Rəsmi Ankara ilə siyasətini düzgün qurmadı”



"Bayden hökuməti Türkiyənin Rusiya ilə əməkdaşlığını qəbul edə bilmir. Regionda təzyiqləri hər istiqamətdə artırmağa çalışır. Ancaq anlamalıdır ki, elə bu səbəbdən Türkiyəni itirdilər...".

Bu sözləri siyasi analitik Rusif Məmmədsoy özünün ”Facebook” səhifəsində yazıb. Son vaxtlar gərginləşən geosiyasi vəziyyət və baş verənlərin fonunda Türkiyə-Rusiya yaxınlaşması göz önündədir. Deməli, özünü ”dünyanın ağası” hesab edən ABŞ təklənir. Ekspert bu barədə daha ətraflı ”Şərq”ə danışdı:

”Bayden hökuməti Türkiyə ilə siyasətini düzgün qurmadı. O, Trampın diplomatiyasını davam etdirir. Beləliklə, əslində keçmiş administrasiyanın aqibətini yaşaya bilər. Məlumdur ki, rəsmi Ankaraya qarşı münasibətin adekvat olmadığına görə ABŞ-da hökumət əleyhinə impulslar da yaranmışdı. Çünki Türkiyə kimi güclü dövlətlə müttəfiqlik rəsmi Vaşinqtona lazımdır. Qardaş ölkə indi beynəlxalq güclərdən birinə çevrilib. Amerika da bunu anlamalıdır”.

R.Məmmədsoyun fikrincə, Türkiyəyə qarşı radikal münasibət ABŞ üçün yaxşı nəsə vəd etmir: ”ABŞ rəsmi Ankaraya qarşı ikili münasibətlərlə onun kimi güclü bir partnyoru itirmiş oldu. Həmin ikili münasibət özünü hər şeydən əvvəl separatçı qüvvələr olan PKK-nı dəstəkləməkdə göstərdi. Nəticədə Türkiyə ilə Rusiya arasında əməkdaşlıq gücləndi. Baydenin ən böyük səhvi Ankara ilə Moskvanın yaxınlaşmasına icazə verməsi oldu. Halbuki, o, Türkiyəyə F-35-ləri satsa idi, belə olmazdı. Rəsmi Vaşinqton Aralıq dənizində Türkiyənin təklənməsinə imkan verməməli, Suriyada PKK-nı silahlandırmamalı idi. Əlbəttə, vəziyyət belə davam edərsə, Ankara ilə Moskva arasında əməkdaşlıq bir az da möhkəmlənəcək.

> "...Nəticədə Türkiyə ilə Rusiya arasında əməkdaşlıq gücləndi"

Onsuz da ABŞ-la 70 illik hərbi əməkdaşlıq Türkiyəyə nəsə vermədi. Amma Rusiya ilə əməkdaşlıq etdikdən sonra rəsmi Ankara üçün xeyli perspektivlər açıldı, Suriyada söz sahibinə çevrildi. Çünki Rusiya da Türkiyəyə güvənir və ABŞ-a qarşı mübarizədə özünə müttəfiq qazanır. Onu da deyim ki, ABŞ-la münasibətər Türkiyəni narahat etməməlidir. Birincisi, Türkiyənin Azərbaycandakı keçmiş səfiri Hulusi Kılıçın da dediyi kimi, nüvə silahına sahib olmaq qardaş ölkə üçün maraqlı deyil. Çünki Pakistanın nüvə silahı var. İkincisi isə Azərbaycan-Türkiyə-Pakistan üçlüyünün formalaşması gücümüzə güc qatır”.

Analitik həmçinin dedi ki, Türkiyə Kremlə qarşı münasibətdə də ”yüz ölçüb, bir biçir”:

”Rusiya Türkiyənin hələ də NATO-nun regiondakı təmsilçisi olduğunu yaxşı bilir. Yəni rəsmi Ankara NATO ilə ”körpüləri tam yandırmayıb”. Deməli, balanslı siyasət yeridir, tərəflərdən biri ilə münasibəti digərinə qurban vermir. Türkiyə açıq-aydın bildirir ki, Rusiya ilə əməkdaşlıq etməsi onun heç də hər əməlinə göz yumacağı, səssiz qalacağı demək deyil”.

**Kənan Novruzov**

## Yeni virus ölümcül və yoluxucudur

### Fransada yeni bir mutasiya ortaya çıxıb



**Koronavirusun İngiltərə, Cənubi Afrika və Braziliyada aşkarlanan mutasiyalarından sonra Fransada yeni bir mutasiya ortaya çıxıb.**

”Şərq” ”Sabah.com”a istinadən xəbər verir ki, Fransa Səhiyyə Nazirliyinin verdiyi açıqlamada ölkədə COVİD-19-un yeni bir mutasiyasının aşkar edildiyi bildirildi.

Nazirlik yeni mutasiyanın Lanniondakı xəstəxanada bir qrup hadisədən sonra meydana gəldiyini qeyd etdi.

İlkin araşdırmalara görə, yeni mutasiya digər viruslardan daha ölümcül və ya yoluxucudur.

**Yeganə**

## Gürcüstan prezidenti peyvənd vurduracaq



**Gürcüstan prezidenti Salome Zurabişvili martın 18-də koronavirusa qarşı peyvənd olunacaq.**

”Report”un yerli bürosu xəbər verir ki, bu barədə dövlət başçısının administrasiyasından bildirilib. Prezidentə bu yaxınlarda Gürcüstanın tədarük etdiyi ”AstraZeneca” vaksini vurulacaq.

S.Zurabişvili bütün rəsmi şəxsləri peyvənd olunmağa çağırıb.

*Qeyd edək ki, qonşu ölkənin dövlət başçısı martın 18-də həm də 69 yaşını qeyd edəcək.*

# NATO gəmiləri Qara dənizdə tez-tez görünür

## Rusiya əvvəlki illərlə müqayisədə xeyli zəifləyib

NATO-ya məxsus 4 hərbi gəmi Qara dənizdə Gürcüstanın ərazi sularına daxil olub. Türkiyə, İspaniya, Bolqarıstan və Rumıniyaya məxsus hərbi gəmilərin Gürcüstana səfərinin məqsədi Gürcüstan və NATO hərbi dəniz qüvvələri arasında qarşılıqlı əməliyyat qabiliyyətini yüksəltməkdir.

Gürcüstan Sahil Mühafizə Xidmətinin məlumatına görə, NATO hərbi gəmiləri Gürcüstan Sahil Mühafizə Xidməti ilə birgə təlimlər də keçirəcək. NATO gəmilərinin Gürcüstanın ərazi sularını martın 18-də tərk edəcəyi qeyd olunub.

Baş verənlər Rusiyanın gün keçdikcə gücünün zəiflədiyinə dair iddiaları ortaya qoyur. İlk olaraq Azərbaycan Ordusu torpaqlarını işğaldan azad etdi. Məlumdur ki, illərdir Qarabağ ”düyünü”nün açılmasına Rusiya mane olurdu. Azərbaycanın qalib gəlməsi Kremlə bir zərbə idi. Daha sonra isə Ukrayna Rusiyanın işğal etdiyi Krıma öz ordusunu yeritdi. İndi isə NATO-ya məxsus 4 hərbi gəmi Gürcüstanın sularına daxil olub. Ümumiyyətlə, Amerikada Co Bayden prezident seçildikdən sonra Kremlin ”qara” günləri başlayıb...

**Mövcud prosesləri ”Şərq”ə şərh edən politoloq Sədrəddin Soltan bildirib ki, NATO gəmiləri vaxtaşırı olaraq Qara dənizə gəlir:** ”Təxminən 10 gün öncə Ukraynanın Odessa limanına bir qrup gəmi gəlmişdi, onların içində Türkiyə gəmiləri də var idi. Gürcüstanın Qara dəniz sahillərinə də NATO gəmiləri gəlir. Lakin NATO nə Gürcüstanın, nə də Ukraynanın ərazi bütövlüyünü təmin etmək gücündədir, sadəcə olaraq bununla bağlı müxtəlif siyasi bəyanatlar verir. Beləliklə, Gürcüstan və Ukrayna ilə birgə hərbi təlimlər keçirirlər. NATO indiyə qədər Ukraynanın Krım və Donbasla bağlı ərazi bütövlüyünün təmin olunması, Gürcüstanın Abxaziya və Cənubi Osetiya vilayətinin qaytarılmasına dair addım atmayıb. Sadəcə olaraq bu iki dövlətlə müqavilələr var. Həmin müqavilələrə uyğun olaraq NATO gəmiləri Gürcüstan ərazisinə gəlir”.



> "Kremlin ən etibarlı partnyoru Ermənistandır. Ermənistanda belə anti-Rusiya ovqatı var"

*Rəsmi Moskvanın zəifləməsinə gəlincə, analitik vurğulayıb ki, Rusiya keçmiş SSRİ-nin varisidir, lakin bu varislik SSRİ-dən qalma mirası bərpa edə bilmir:* ”Keçmiş SSRİ dünyada ikinci qütbün başında dayanırdı. İndi isə həmin qütb yoxdur. Hazırda dünyada əsas söz sahibi ABŞ-dır. Rusiya əvvəlki illərlə müqayisədə zəifləyib. Bunu dəqiq anlamaq üçün onun Cənubi Qafqazdakı fəaliyyətinə nəzər salmaq kifayətdir. Kremlin ən etibarlı partnyoru Ermənistandır. Ermənistanda belə anti-Rusiya ovqatı var. Dəfələrlə İrəvanda etiraz aksiyaları keçirilib və Rusiya işğalçı adlandırılıb. Hətta Nikol Paşinyan və onu dəstəkləyən qüvvələr bir zamanlar anti-Rusiya meyilli olublar. O vaxt aparılmış rəy sorğularının nəticəsinə görə, respondentlərin 30-40 faizi Rusiyanın əleyhinə olub”.

**ABŞ-ın keçmiş prezidenti Barak Obama da Rusiyanın zəif olduğunu dilə gətirmişdi:** ”Putin çox zəifdir. Çünki o, qonşuluğunda özündən gücsüz olan dövlətləri hədələyir və onlara qarşı güc tətbiq edir”. Bütün bunlar onu göstərir ki, Rusiya güclü olsaydı, dünya onun ətrafında yığışardı”.

**Politoloq Əhəd Məmmədli isə ”Şərq”ə vurğulayıb ki, 2008-ci il Gürcüstan-Rusiya müharibəsindən sonra NATO gəmiləri mütəmadi olaraq Qara dənizdə təlimlər keçirir.** Analitikin sözlərinə görə, əslində Hərbi Alyansın bölgədəki bütün addımlarının qayəsi Rusiyanı narahat etməkdir: ”Gürcüstanla keçirilən növbəti hərbi təlimlərin məqsədi Moskvaya təzyiq və əzələ nümayişidir. Qərb ölkələri Kremli qıcıqlandırmaq üçün əllərindən gələni edirlər. NATO Cənubi Qafqazda öz gücünü və təsir imkanlarını artırmaqdadır. Gürcüstanda və Ermənistanda ABŞ, Azərbaycanda isə Türkiyə reallığı ortadadır. Region get-gedə Rusiyanın təsir dairəsindən çıxır. Mövcud reallığı dərk edən Moskva isə Qarabağda qalmaq üçün ciddi canfəşanlıq edir. Rus sülhməramlılarının qısa zamanda bölgəyə yerləşdirilməsinin mühüm səbəblərindən biri də budur. Məhz bu sayədə Kreml bölgəyə nəzarət imkanını itirmir. Amma proseslər Rusiyanın xeyrinə cərəyan etmir. Yaxın perspektivdə Moskva tamamilə Cənubi Qafqazdan uzaqlaşmaq məcburiyyətində qalacaq”.

**Yeganə Bayramova, İsmayıl Qocayev**

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi



# Jurnalistlər gördüklərini yazacaq və yayacaqlar

### *Ermənilər Ağdam şəhərini insanlığa yad nifrətə bürünərək dağıdıblar*

Ötən gün 150-dən çox media qurumu və QHT rəhbəri, bloger və ictimai fəal işğaldan azad olunmuş Ağdam şəhərinə səfər edib. Onları Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev müşaiyət edib. Səfərdə əsas məqsəd işğaldan sonra Ağdam şəhərinin vəziyyətilə tanışlıq olub.

Onlar səfər zamanı Uzundərə II Şəhidlər xiyabanında, 1991-ci ilin fevralında partladılmış avtovağzalda, Cümə məscidində, Mərkəzi meydanda, Qarabağ xanlarının abidələr kompleksində, Ağdamın "Qarabağ" futbol klubunun "İmarət" stadionunda, Çörək muzeyində, 1941-1945 abidəsi və I Şəhidlər xiyabanında, Qarağacı qəbiristanlığında, Şahbulaq qalasında olublar. Onlar eyni zamanda mina təmizləmə əməliyyatını müşahidə ediblər. İndi isə Azərbaycan həqiqətlərinin, erməni vandallığının dünyaya tanıdılması üçün çalışmaq gərəkir. İlk növbədə faktların dünya mediasında təbliğatı çox önəmlidir. Bəs erməni vandallığının dünyaya çatdırılması və haqq səsimizin dünyaya duyulması üçün mediamız hansı işlər görməlidir? Sualımızı bir çox media mütəxəssislərinə ünvanladıq.

**Modern.az-ın baş redaktoru Elşad Eyvazlı "Şərq"ə açıqlamasında qeyd edib ki, yerli media nümayəndələrinin işğaldan azad olunmuş ərazilərə səfəri çox önəmlidir.** Onun sözlərinə görə, işğaldan azad edilmiş ərazilərimizdə erməni vandalizminin yerli media nümayəndələrinin görməsi onun dünyaya tanıdılmasında mühüm rola malikdir: "Bir neçə gün bundan öncə böyük bir heyətlə Ağdamda idik. Yerlə-yeksan edilmiş kəndlər, izi silinmiş qəbiristanlıqlar, zorlanmış bir şəhər vardı qarşımızda. O boyda Ağdamın ancaq adı vardı, özündən əsər-əlamət qalmamışdı. İşğaldan azad edilmiş Ağdamda hər tərəf "erməni" idi. Hər cığırdan, hər daşdan erməni vəhşiliyi boylanırdı. Biz bir tərəfə, əslən Ağdamdan olanlar da sanki harada olduqlarını kəsdirə bilmirdilər. Hətta hiss edirdim ki, onlar bu dözülməz gerçəkliyin içindən qaçıb xəyalən keçmişə getmək istəyirlər, amma gerçəkliklər buna imkan vermirdi. Səfər yoldaşlarımın bəzilərinin gözündən "Keşkə gəlməsəydim, Ağdamın bu gününü görməsəydim" fikirlərini də oxumaq elə çətin deyildi. Bəli, indi Ağdama getməmək bir dərddirsə, gedib o halını görmək bundan min qat ağır idi. Amma media işçilərinin Ağdama səfəri çox önəmli idi. Yəni biri var sosial şəbəkələrdə, saytlarda, televiziyalarda bu vəhşilikləri görəsən, bir də var ki, bu vəhşilikləri öz gözlərimiz ilə görək. Bax, ən vacib məqam elə budur. Çünki bu onların vandallığının dünyaya tanıdılmasında əhəmiyyətli rola malikdir. Bir məqamı qeyd edim ki, öz müşahidələrim əsasında deyə bilərəm ki, işğaldan azad olunmuş bütün bölgələrimizdə erməni izi var. Yəni hər ağacdan, hər binadan, hər küçədən vəhşi erməni obrazı boylanır. Bunlara şahid olmaq ilk növbədə bizə erməniliyi dünyaya çatdırmaq üçün daha asan olacaq".

> "Nə qədər çox məzmunlu belə materiallar istehsal etsək və nə qədər onları çox dillərdə yaysaq, işimiz bir o qədər asan olacaq"

*E.Eyvazlı əlavə edib ki, hər bir media işçisinin bu həqiqətləri həm yerli, həm də xarici mediada işıqlandırması informasiya savaşı baxımından çox vacibdir:* "Bir vaxtlar torpaqlarımız işğal altında idi. Təəssüf ki, ora gedə bilmirdik. Sevindirici haldır ki, artıq gedə bilirik. Amma çox təəssüflər olsun ki, indi ermənilərin əməlləri və əsərləri ordadır. Hər bir media işçisi mütləq şəkildə xarici media dünyasına yazı hazırlamalıdır. Bundan başqa ermənilərin əsl kimliyi barədə daha çox işlər görməliyik. Söhbət bundan gedir ki, hər bir həmkarımız bu istiqamətdə çox fəal olmalıdır".

*E.Eyvazlı qeyd edib ki, indi Ermənistanı, erməniləri, Ermənistanın müdafiəçilərini dünyaya tanıtmağın ən yaxşı zamanıdır:* "İşğaldan azad edilmiş hər bir bölgənin hər cığırında, hər daşında "erməni" var. Biz bu erməniləri usanmadan, yorulmadan dünyaya göstərməliyik. Prezidentin köməkçisi Hikmət Hacıyev demək olar ki, hər həftə xaricdən gələn fərqli heyətlərə Qarabağdakı "erməniləri" göstərir. Biz də bu işdə onlara kömək etməliyik. Məsələ, niyə Qurban Qurbanov, Rəşad Sadıqov Messini, Ronaldonu Qarabağın Ağdamdakı indiki məhv edilmiş stadionuna dəvət etmir? Gəlməyəcəklər, gəlməsinlər, bu dəvətin özü dünyada səs-küy qoparacaq xəbər olacaq... Amma mütləq gələn də olacaq... Niyə "Qarabağ"ın məktəb yaşlı oyunçuları məktub yazaraq dünyanın tanınmış futbolçularını, klublarını Ağdamdakı darmadağın olunmuş stadionuna dəvət etməsin? Bir Messinin, bir Ronaldonun, bir Məsutun bir tvit-i min BBC-nin gerçəyi dünyaya çatdırmaq baxımından daha effektli olacaq. Müğənnilər də, həkimlər də, jurnalistlər də, alimlər də, diaspor nümayəndələri də - hamı, uşaq da, yaşlı da, bütün azərbaycanlılar Ağdamdakı, işğaldan azad edilmiş bölgələrdəki "erməniləri" dünyaya göstərmək üçün ölüm-dirim mübarizəsinə qoşulmalıdır. "Dünya həqiqəti görür, sadəcə ikili yanaşması var" deyib keçməyək. Ağdamdakı "erməniləri" tam yox edəndən sonra saz da çalarıq, şeir də yazarıq, bayatı da deyərik".

**Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Mirzəyev deyib ki, Ağdamda gördüklərimiz ürəklərimizi paramparça etdi:** "Beş avtobusdan ibarət olan maşın karvanımız Ağdamın içinə doğru irəlilədikcə, erməni vandalizminin miqyası adamı dəhşətə gətirirdi. Təbii ki, hər kəs burada gördüklərini lentə alır, yaddaşlara köçürürdü. Bu gün işğaldan azad olunmuş rayonlarımıza media və vətəndaş cəmiyyəti nümayəndələrinin səfərlərinin təşkil edilməsi çox vacibdir. Onun əhəmiyyətindən saatlarla danışmaq olar. Önəmli olan odur ki, təşkilatçıların verdiyi mesajlara görə yaxın gələcəkdə bu cür səfərlər işğaldan azad olunmuş başqa rayonlarımıza da təşkil olunacaq. Bu cür səfərlərin tez-tez təşkil olunması erməni vandallığının tanıdılması baxımından çox önəmlidir. Buna görə də belə səfərlərin təşkili labüddür".

**Tanınmış jurnalist Azər Həsrət "Şərq"ə açıqlamasında bildirib ki, Ağdam şəhərində düşmən hər yeri insanlığa yad nifrətə bürünərək dağıdıb:** "Azərbaycanın böyük və strateji əhəmiyyət kəsb edən rayonlarından biri olan Ağdamın bütün infrastrukturu, məşhur binaları, memarlıq inciləri, dini ibadətgahları yerlə bir edilib. Ümumiyyətlə, Ağdamda gördüklərimizi sözlə ifadə etməyə çətinlik çəkirəm. Çünki həqiqətən də 21-ci əsrdə o cür mənzərələri görmək sadəcə olaraq ağıla batan deyil. Yəni bir millət nə qədər vəhşi olmalıdır ki, bütöv bir şəhəri, o cümlədən digər torpaqlarımız da bu cür viran qoysun. Bunun dünyaya çatdırılması əlbəttə ki, çox vacibdir. Amma biz "damadama göl olar" misalı öz həqiqətlərimizi dünyaya çatdırmalıyıq. Konkret Ağdamdan söhbət gedirsə, burada ələvə şərhə ciddi ehtiyac yoxdur. Sadəcə olaraq onu göstərmək lazımdır. Yəni dünyanın hansı tərəfi olur-olsun bu dəhşəti görüncə, əlbəttə ki, ona uyğun hərəkət də edəcəklər. Sual yarana bilər. Bəs biz bunu necə edə bilərik? Əlbəttə ki, görüntülər hər bir media nümayəndəsində var. Mən də çəkmişəm. Artıq bir sıra hazırlıq işləri görürəm və onları bir sıra yerlərdə paylaşacağam. Xüsusən də ilk növbədə xarici ölkələrdə geniş yayılmasına çalışacağam. Ümumiyyətlə, bütün media nümayəndələri, xüsusən də, kimin əlində nə imkanı varsa, yaxud da ki, kiminsə xarici media nümayəndələri ilə əlaqələri varsa, bütün bunları işə salmaq lazımdır. Biz jurnalistlərin vəzifəsi yazmaq, çəkmək, göstərmək, oxurtdurmaq və dinlətdirməkdir. Ona görə də əlimiz çatan bütün ünvanlara bu materialları göndərməliyik".

*A.Həsrət vurğulayıb ki, bu haqda xarici dillərdə materialların hazırlanması xüsusilə vacibdir:* "Şəxsən mən özüm ingilis və rus dillərində, eləcə də Türkiyə türkcəsində materiallar hazırlamışam. Onları mümkün şəkildə xarici ölkələrdə dərc etdirəcəm. İndi əlbəttə ki, internet əsridir. Biz sadəcə olaraq ermənilərin əsl simasını dünyaya çatdırmalıyıq. Bunlar isə bir neçə istiqamətdə işlənməlidir. Tutaq ki, əgər ermənilər iddia edir ki, bura guya qədim erməni dövlətinin mərkəzi olub, onda sual vermək lazımdır, niyə dağıdırsınız bunu? Əgər sizin torpaqlar idisə, niyə daşı daş üstünə qoymamısınız? Şəhəri viran qoymusunuz? İnanın ki, Ağdamda nə bir dənə salamat bina, nə də ki, obyekt və küçə var. Bunu bu məntiqlə dünyaya təqdim etmək gərəklidir. O zaman dünya da başa düşəcək ki, doğrudan da torpaq onların idisə, işğaldan sonra niyə salamat yerləri dağıdıblar. Yəni düşünürəm ki, belə təqdimatla dünyanın duyğularına toxuna bilərik. Amma təbii ki, illərlə iş aparılmalıdır. Nə qədər çox məzmunlu belə materiallar istehsal etsək və nə qədər onları çox dillərdə yaysaq, işimiz bir o qədər asan olacaq".

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Əhali gəlirlərinin 50 faizini ərzağa xərcləyir



## İnkişaf etmiş ölkələrdə bu göstərici adətən 10-15 faiz təşkil edir

Bu ilin yanvar-fevral aylarında əhali ən çox ərzağa pul xərcləyib. Bunu açıqlanan məlumatlar təsdiqləyir. Dövlət Statistika Komitəsinin məlumatında qeyd olunur ki, 2021-ci ilin yanvar-fevral aylarında Azərbaycanda pərakəndə ticarət şəbəkəsində istehlakçılara 6,0 milyard manatlıq, o cümlədən 3,2 milyard manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 2,8 milyard manatlıq qeyri-ərzaq malları satılıb.

Hesabat dövründə alıcıların son istehlak məqsədilə aldıqları mallara xərclədiyi vəsaitin 46,9 faizi ərzaq məhsullarının, 6,3 faizi içkilər və tütün məmulatlarının, 16,5 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 5,4 faizi avtomobil benzini və dizel yanacağının, 5,2 faizi elektrik malları və mebellərin, 2,3 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 0,7 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 16,7 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunub. 2021-ci ilin yanvar-fevral aylarında istehlak məhsullarının dəyər ifadəsində 26,6 faizi ticarət müəssisələri, 49,9 faizi fərdi sahibkarlar tərəfindən, 23,5 faizi isə bazar və yarmarkalarda satılmışdır. 2020-ci ilin yanvar-fevral ayları ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə müəssisələr üzrə 9,3 faiz, fərdi sahibkarlar üzrə 1,6 faiz artıb, bazar və yarmarkalarda isə 15,8 faiz azalıb.

Hesabat dövründə ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla ayda 302,1 manatlıq, o cümlədən 160,6 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 141,5 manatlıq qeyri-ərzaq malları alıb.

**Mövcud vəziyyəti "Şərq"ə şərh edən iqtisadçı Natiq Cəfərli qeyd etdi ki, açıqlanan rəqəmlər reallığı əks etdirir:**

- Ötən illə müqayisədə vəziyyət eynidir. Əhali gəlirlərinin böyük hissəsini - 50 faizə yaxınını yenə də ərzaq məhsullarına xərcləyir. İnkişaf etmiş ölkələrdə bu göstərici adətən 10-15 faiz təşkil edir. Yəni əhali ümumi gəlirlərinin yalnız 10-15 faizini ərzaq məhsullarına sərf edir. Belə bir nəticə gəlirlilik səviyyəsindən asılıdır. Azərbaycan orta aylıq gəlirlər az, ərzaq məhsullarının qiyməti isə baha olduğundan əhali gəlirlərinin böyük hissəsini ərzağa xərcləmək məcburiyyətində qalır. İnkişaf etmiş ölkələrdə isə gəlirlər böyük olduğundan ərzağa xərclənən vəsait az faiz təşkil edir. Azərbaycanda minimum əmək haqqı 250 manatdır. Almaniyada isə yaşayış minimumu 900 avrodur. Təbii ki, bu durumda faiz göstəriciləri də fərqli olacaq. Hesabatda diqqət çəkən həm də yanvar-fevral ayları ərzində əhalinin əczaçılıq məhsulları (dərman preparatları - red.) və tibbi ləvazimatlara xərclənən vəsaitin miqdarıdır. Göstərici ümumi gəlirin 2.3 faizidir. İlk baxışda faiz kiçik görünə bilər, lakin əslində bu, kifayət qədər böyük rəqəmdir. Deməli, ötən aylarda əhali ərzaq məhsulları ilə yanaşı dərman preparatlarına da kifayət qədər vəsait xərcləyib.

**Məlahət Rzayeva**



# Ağdam yenidən qurulur

## İlkin mərhələdə 3 kənddə elektrik xətləri, dayaqlar, transformator məntəqələri və sayğaclar tamamilə yenilənir

**"Azərişıq Qarabağda" layihəsi çərçivəsində Ağdam rayonun Əfətli kənd ərazi nümayəndəliyinə daxil olan 8 kənddə yenidənqurma işlərinə start verilib. Bu barədə "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidmətindən "Şərq"ə verilən məlumatda bildirilib.**

Bildirilib ki, müharibənin gedişində bu kəndlər erməni atəşinə məruz qalan zaman elektrik eneji təsərrüfatına ciddi ziyan dəymişdi. Ermənilərin atdığı çoxsaylı mərmilər bir çox yerdə xətt və dayaqları yararsız hala salıb: "İlkin mərhələdə 3 kənddə elektrik xətləri, dayaqlar, transformator məntəqələri və sayğaclar tamamilə yenilənir. Əraziyə kifayət qədər mal materal göndərilib. 1200-dək abonetin yaşadığı Hacıməmmədli, Məmmədbağırlı və Əfətli kəndində işlərin yekunlaşması bir aya nəzərdə tutulub. Kəndlər yeni tikilmiş 35/10 kv-luq Əfətli y/st-dan qidalanır".

Onu da qeyd edək ki, Prezident İlham Əliyevin fərmanına uyğun olaraq işğaldan azad olunan Cəbrayı, Şuşa, Laçın, Qubadlı, Zəngilan, Aşdam rayonu ərazilərində yerləşən xüsusi dövlət əhəmiyyətli binalar elektrik enerjisi ilə təmin edilib. Suqovuşan qəsəbəsinə isə Tərtərdən yeni 35 kV-luq xəttin çəkiliş işləri davam edir.

# Reanimasiyada yanaşı yatırdılar

## Məşhur ər-arvad həkim eyni gündə koronadan öldü





**"Onlar bir-birindən heç vaxt ayrılmazdı, ölüm günlərinə kimi". Qafqazda məşhur ər-arvad həkim İlyas və Marita Əfəndiyevlər koronavirusdan vəfat etdi.**

Medicina.az xəbər verir ki, Kabardin-Balkar respublikasının əməkdar həkimləri reanimasiyada belə yanaşı yatırdılar. 63 yaşlı Mariya infeksion xəstəxananın reanimasiya rəhbəri, 69 yaşlı İlyas Əfəndiyev isə cərrah idi.

Hər iki həkim barədə "Allahın möcüzəsi" deyirdilər.

İlk öncə qadın virusa yoluxub, daha sonra ərini yoluxdurub. Vəziyyəti ağırlaşdıran Mariyanı reanimasiyaya yerləşdirəndə, bir qədər yüngül olan İlyas arvadını tək qoymamaq üçün onunla bir şöbədə yatır.

Bİrinci Mariya Əfəndiyeva vəfat edir və onun ölümünü yanaşı palatada olan yoldaşından gizlətmirlər.

Artıq koronaya qalib gəlmək ərəfəsində olan İlyas həyat yoldaşının dəfninə görə çox narahat olur. Uşaqlarına vəsiyyət edir ki, öldükdən sonra onu da Mariyanın yanında dəfn etsinlər.

Elə həmin gecə İlyas Əfəndiyev də vəfat edir.

# 13 müəllim də koronaya yoluxdu

## *Daha 2 məktəb disitant təhsilə keçib*

Bakıda 102 nömrəli tam orta məktəb və 246 no?mrəli məktəb-liseyin fəaliyyəti distant təhsil formasında davam etdiriləcək. Bu barədə Bakı Şəhəri üzrə Təhsil İdarəsindən məlumat verilib.

*Qeyd olunub ki, 102 nömrəli tam orta məktəbdə çalışan 6, 246 nömrəli məktəb-liseydə çalışan 7 müəllimin COVID-19 infeksiyasına yoluxmaları təsdiq olunub:* "Bu səbəbdən Gigiyena və Epidemiologiya Mərkəzinin rəyi əsasında qeyd olunan məktəblərdə əyani tədris prosesi 14 gün müddətinə distant təhsillə əvəz olunub".



Qeyd edək ki, hazırda təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesi Nazirlər Kabinetinin "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları"na uyğun olaraq təşkil edilir. Təhsil müəssisələrində koronavirus infeksiyasına qarşı şagirdlərin və məktəbin pedaqoji heyətinin daha etibarlı qorunması üçün sanitar-epidemioloji vəziyyətdən irəli gələn tələblərə ciddi əməl olunur və müvafiq qaydaların icrası ilə bağlı mütəmadi monitorinqlər aparılır.

Məlum olduğu kimi, paytaxtdakı ümumi təhsil müəssisələrində normal tədris mühitinin bərpası və məktəb kollektivlərinin sağlamlığının daha etibarlı qorunması üçün 50 və daha yuxarı yaşda olan pedaqoji və texniki heyətin vaksinasiya prosesi davam edir. Sağlamlıqlarına həssas yanaşan bütün təhsil işçiləri zəruri olan vaksinasiya prosesində fəal iştirak edirlər.

Onu da qeyd edək ki, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki 316 ümumi təhsil müəssisəsində 455 994 şagirdin təlim-tərbiyəsi ilə 28 354 müəllim məşğul olur.

# Regionlarda torpaq bazarında aktivlik artır



*"Hökumətin təşviq proqramı olsa Bakıda sıxlığı azaltmaq da mümkün olar"*

Hazırda torpaq bazarı üçün aktiv bir dövrdür. Bu aktivlik yaxın zamanlarda regionlarda özünü göstərəcək. Yay ayları yaxınlaşdıqca Bakı və Abşeron ərazisində bir qədər passivlik müşahidə edilə bilər.

Çünki müəyyən alıcı kütləsi artıq regionlara maraq göstərir. Bu səbəbdən regionlarda torpaq qiymətlərinə olduqca təsir edəcəyi gözlənilir.

**Regionlarda torpaq qiymətlərinin bahalaşmasına münasibət bildirən iqtisadçı-ekspert Nazim Bəydəmirli "Şərq"ə bildirib ki, pandemiya səbəbindən insanlar rayonlara üz tutur və orada fərdi təsərrüfat işləri ilə məşğul olurlar:** "Bu hal daha çox mövsüm ilə bağlı ola bilər. Yaz və yay aylarında insanlar istirahət etmək üçün regionlara üz tuturlar. Həmin səbəbdən də aktivlik yaranır. Aktivliyin artmasının iqtisadi tərəfləri də var. Ötən illərdə Bakı şəhərinə rayonlardan bir qrup tikinti sahəsində çalışan insanlar iş üçün müvəqqəti olaraq gəlirdilər. İndi pandemiya dövrü olduğuna görə tikinti sektorunda aktivlik bir qədər azalıb. İnsanlar daha çox rayonlarda təsərrüfat işləri ilə məşğul olur, çörəklərini də buradan çıxarırlar" .

**Nazim bəy deyir ki, regionlara tələbatın çoxalması Bakıda sıxlığın azalmasına da kömək edəcək:** "Mövzu olduqca vacib və aktual xarakter daşıyır. İnsanların regionlara üz tutması Bakıda sıxlığın azalmasına, qiymətlərin optimallaşmasına da gətirib çıxaracaq. Məskunlaşma Bakıda çoxluq təşkil etdiyi üçün bahalaşma da ilk olaraq burada müşahidə edilir. Hesab edirəm ki, bu tendensiya davam edərsə və hökumətin təşviq proqramı olsa Bakıda sıxlığı azaltmaq da mümkün olar".

**Aytac Ali**

## Qızılın, gümüşün qiyməti artıb

Fuad İbrahimov: "Bu, birjalarda bazar münasibətlərinə uyğun aparılan əməliyyatların mövcud vəziyyətidir"



**Azərbaycanda qızıl və gümüşün qiymətində son günlərdə artım müşahidə olunur.**

Belə ki, martın 16-da qızılın qiyməti martın 15-i ilə müqayisədə 11,356 manat (0,39 faiz) artaraq 1 unsiya üçün 2 947,528 manat təşkil edib. Gümüş 0,3908 manat (0,88 faiz) bahalaşaraq 1 unsiya üçün 44,5851 manata bərabər olub.

**Qiymət artımı haqda "Şərq"ə danışan iqtisadçı-ekspert Fuad İbrahimov qeyd edib ki, hazırda baş verən qiymət artımının iqtisadi amillərlə bağlılığı yoxdur:** "Belə hallar dünya birjalarında istənilən əmtəədə, valyuta cütlüklərində və indekslərdə baş verə bilər. Bu gün dünya bazarında bununla bağlı hansısa dəyişiklik gözə çarpmır. Bu, birjalarda olan qiymət artımıdır. Belə olan zaman biz eyni zamanda qiymətin enişini də müşahidə edə bilərik. İndi baş verən prosesin siyasi və iqtisadi aspektlərlə bağlılığı yoxdur. Bu, sadəcə olaraq birjalarda bazar münasibətlərinə uyğun aparılan əməliyyatların mövcud vəziyyətidir".

**Aytac**



# Yarım ayda dəm qazından 21 nəfər zəhərlənib

*Elmar Nurəliyev: "Havalandırma sistemi ildə iki dəfə mütləq təmizlənməlidir"*

Ölkədə baş verən intiharlardan sonra narahat doğurucu hadisələrdən biri də dəm qazından zəhərlənmələrin və bunun nəticəsində ölüm hadisələrinin sayının çoxalmasıdır. Mart ayının ilk 15 günü ərzində dəm qazından zəhərlənmə ilə bağlı 21 müraciət olub. Bu hal "mavi bəla" mövzusunu yenidən gündəmə gətirmiş olur.

1 saylı Kliniki Tibbi Mərkəzin (KTM) Toksikologiya şöbəsinin rəhbəri Azər Maqsudov bu barədə məlumat verib.

Bildirib ki, bu müddət ərzində dəm qazından zəhərlənmə ilə bağlı şöbəyə müraciət edənlərdən 16 nəfər stasionar müalicəyə götürülüb: "Dəm qazından zəhərlənən 16 nəfərdən ikisi azyaşlı olub. Bundan başqa metil spirti ilə zəhərlənən 14 yaşlı oğlan da xəstəxanaya gətirilib. O, çox ağır vəziyyətdə olub, sağaldıqdan sonra evə buraxılıb".

**Mövzu ilə bağlı "Şərq"ə danışan təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev açıqlamasında bildirib ki, dəm qazından zəhərlənmə yanma prosesi düzgün getmədikdə baş verir:** "Qaz cihazlarına kənar müdaxilələr olur. İnsanlar özləri, yaxud dost-tanışdan usta gətirirlər. Müəyyən standartlar pozulur. Dəm qazını yaradan qaz cihazlarına aid olan boruların vaxtında təmizlənməməsidir. Havalandırma sistemi ildə iki dəfə mütləq təmizlənməlidir. Tüstü bacaları zamanında təmizlənməli və mütəmadi nəzər yetirilməlidir. Hamam otağının qapısında dəlik olmalıdır, həmçinin nəfəslikdən də istifadə edilməlidir. Müasir sistemlərə keçid etmək, köhnə qaz cihazlarını istismardan çıxartmaq lazımdır. Tüstü bacaları binanın damında 50 sm yuxarıda yerləşməlidir.

Yay aylarında evlərdə pəncərə açıq olur, bu cür hallar minimum yaşanır. Adi təhlükəsizlik qaydalarına riayət etsələr, dəm qazından zəhərlənmə halları baş verməz".

**Aygün Tahirqızı**

# Pensiya alanların sayı xeyli azalıb

*"Gürcüstan modelinə keçmək daha yaxşı olardı"*



Bu ildən etibarən Azərbaycanda kişilərin pensiyaya çıxmaq yaşı 65 yaş olacaq. Qadınlarda isə 2027-ci ilədək hər il altı ay artırılaraq 65 yaşa çatdırılacaq. Pensiya yaşının artırılması ölkədə pensiya alanların da sayının azalmasına səbəb olub.

Dövlət Statistika Komitəsinin açıqladığı məlumata görə, 2006-cı ildə Azərbaycanda hər 1000 nəfərin 162-si pensiya alıb. Ötən il bu göstərici 128-ə düşüb. Yəni son 14 il ərzində Azərbaycanda hər 1000 nəfərə düşən pensiyaçıların sayı 21 faiz azalıb.

Qeyd edək ki, MDB ölkələrində pensiya alanların sayı Azərbaycanla müqayisədə daha çoxdur.

**Məsələ ilə bağlı "Şərq"ə danışan iqtisadçı-ekspert Nazim Bəydəmirli bildirib ki, Azərbaycanda pensiya qanunvericiliyi ən çox dəyişikliyə məruz qalan sahələrdəndir:** "Təəssüf ki, hələ də ortaq məxrəc tapılmayıb. İnsanların pensiyada qalma müddəti qanunda 12 il göstərilsə də, pensiya kapitalı vətəndaşın pensiya təminatını təmin etməlidir. Beynəlxalq təşkilatlar, o cümlədən BMT-nin statistikasına görə, Azərbaycanda orta yaş həddi kişilərdə 72 yaş yarım, qadınlarda isə 77 yaşdır. Beləliklə, kişilər təqribən 7 il yarım pensiyada qala bilirlər. Qadınlarda isə indiki halda bu müddət normaldır. Lakin digər ölkələrin təcrübəsinə baxdıqda görürük ki, bəzi dövlətlərdə pensiyaya çıxma yaşı 70-dir. Bu ölkələrdə səhiyyə sistemi o dərəcədə mükəmməldir ki, insanlar uzunömürlüdür".

**İqtisadçının sözlərinə görə, Azərbaycanda xarici ölkələrdən fərqli olaraq cəmi bir dövlət pensiya fondu var, özəl fondlar yoxdur:** "Vətəndaş işlədiyi zaman məcbur olaraq sığorta kapitalı ödəyir. Bu, əmək haqqı ilə nisbətdə böyük məbləğ edir. Hesab edirəm ki, Gürcüstan modelinə keçmək daha yaxşı olardı. Gürcüstanda sosial vergi var və dövlət sosial müdafiə fondu deyilən bir qurum yoxdur. Bu funksiyaları Maliyyə Nazirliyi həyata keçirir. Pensiya da Maliyyə Nazirliyi tərəfindən vahid xəzinədarlıqdan ödənilir. Heç vaxt pensiyanın verilməsində gecikmələr olmur. Çünki sosial vergi olaraq əmək haqqında 20 faiz tutulan vergi həm sosial təminatı təmin edir, həm işsizliklə bağlı müavinətlər verilir. Bu faiz bizdə yüksək olduğu üçün vətəndaşları təmin edə bilmirik. Digər MDB ölkələrində pensiya alanların çox olma səbəbi insanların sağlam həyat sürməsi, dövlətin mükəmməl səhiyyə sisteminin və uzunömürlülüyün olmasıdır. Təəssüf ki, Azərbaycanda Ermənistanın təcavüzü nəticəsində vaxtilə 1 milyona yaxın vətəndaşımızın köçkün düşməsi və streslər yaşaması ucbatından onların ömrü azalıb. Beləliklə, bizdə pensiya yaşında olanların sayı digər ölkələrə nisbətən aşağıdır".

**Yeganə Bayramova**

# Sosial məsafəni gözləyən yoxdur



## Qışda insanlar qaydalara daha çox əməl edirdilər

Pandemiya ilə birgə keçirdiyimiz 1 ildən artıq zaman çərçivəsində müxtəlif ölkələrdə virusla mübarizə strategiyaları fərqli olsa da, o strategiyaların tətbiq olunduğu mərhələlər eyni idi. Pandemiya ilə mübarizənin mərhələsindən asılı olmayaraq tətbiq edilən strategiyanın əsasında 3 vacib amil dururdu: xalqın mübarizəsi, dövlətin mübarizəsi və səhiyyə sisteminin mübarizəsi. Bu üç amil də pandemiya ilə mübarizədə eyni dərəcədə əhəmiyyətli idi.

Bizim bu gün ölkələrdə gördüyümüz problemlərin səbəbi bu mübarizələrdən ən azı birinin düzgün təşkil edilməməsi idi. Təbii ki, ilk növbədə xalqın mübarizəsi düzgün təşkil edilməzsə, dövlətin və səhiyyə sisteminin mübarizəsi nə qədər üst səviyyədə təşkil edilməyindən asılı olmayaraq, virusa qalib gəlməkdən və pandemiyada uğurlu mübarizədən bəhs etmək olmaz. Sual yarana bilər. *Bəs ölkəmiz pandemiya mübarizəsində hansı səviyyədədir? Düzgün mübarizə tədbirləri həyata keçirilirmi? Son günlər yoluxma sayının kəskin artması nə ilə əlaqədardır?*

**Suallarımızı cavablandıran infeksionist İlahə Vəliyeva "Şərq"ə açıqlamasında vurğulayıb ki, bu qədər uzun müddətdə artıq koronavirus mutasiyaya uğrayıb:** "Bilirsiniz ki, bir müddət əvvəl ölkəmizdə karantin rejimi yumşaldıldı. Bu da sanki insanlarda bir rahatlıq yaratdı və yoluxma sayına təsir etdi. Son günlər ölkəmizdə yoluxma sayının artmasının başlıca səbəblərindən biri də insanların peyvəndlənmə prosesində iştirak etməməsidir. Sadəcə olaraq çox insan peyvənd vurdurmamaq üçün min cür bəhanə gətirir. Bundan başqa peyvənd olunan insanlarda isə sanki rahatlaşma yaranıb. Yəni sadəcə mən və ətrafımdakı insanlar peyvənd olunubsa, yoluxmayacam və yoluxmanın sayı azalacaq. Amma təbii ki, heç də belə deyil. Nəticədə yeni ştamm meydana gəldi. Yeni ştamma qarşı həssaslıq da artmış oldu. Hər şeydən əvvəl uşaqlar daha həssas olublar, onlar risk qrupuna aid olmağa başlayıblar. Ümumiyyətlə, ağciyər yollarında həssas olan uşaqlar var ki, məsələn, allergik xəstəliyi olan və ya asmatik uşaqlarda onlar bu xəstəliyə qarşı olduqca həssas olurlar. Qızdırma ilə keçirtsələr belə yanaşma olaraq həmin uşaqlarda öskürək, təngnəfəslik və bu kimi hallara rastlanılır. Sonda qanda oksigenin azalması ilə müşahidə edilir". İnfeksionist qeyd edib ki, yoluxma sayının artmasına səbəb olan amillərdən biri də insanların əvvəlki kimi qaydalara riayət etməməsidir: "Əgər qışa nəzər salsaq görərik ki, insanlar o dönəmlərdə sosial məsafə və maska qaydasına daha ciddi riayət edirdilər. İndi marketlərdə, ictimai yerlərdə və avtobuslarda bu qaydalara kifayət qədər riayət olunmur. Yəni sözün əsl mənasında insanlarda rahatlıq yaranıb. Bu da təbii ki, yoluxmanın artmasına gəlib çıxarır".

> Bir rahatlıq yarandığına görə yoluxma sayında böyük artım müşahidə olundu

**İ.Vəliyeva əlavə edib ki, vaksinasiya yeni ştamma qarşı az da olsa qoruma gücünə malikdir:** "Məlum olduğu kimi mövsümi olaraq allergik xəstəliklərin də çox geniş yayılması immuniteti düşmüş bədəndə virusun daha yaxşı aktivləşməsinə şərait yaradır. Buna görə də xəstəliyin yayılmaması üçün daha əlverişli şərait olmalı, qayda-qanunlara ciddi riayət olunmalıdır. Ümumiyyətlə, koronavirusa qarşı antitellər adətən üç həftə sonra yaranır və 3-6 ay ərzində qanda müəyyən miqdarda qalır. Bəzi insanlar üç aydan sonra yenidən yoluxur. Bəziləri isə bir il əvvəl yoluxsa da, onlarda hələ ki heç bir yoluxma müşahidə olunmayıb. Xüsusi olaraq qeyd edim ki, vaksinasiya yeni ştamma qarşı az da olsa qoruyacaq. Çünki virusa qarşı olan antitellər başqa virusa qarşı da mühafizə etmiş olur. Ona görə də vaksinasiya önəmlidir".

**Aynurə Pənahqızı**

## "Quş qripi"ni köçəri quşlar yayır

### Abşeronda tələf olmuş quşlar da həyəcan yaradıb



**Ötən gün Abşeron rayonu, "Bərkdərə" adlanan ərazidə quşçuluq sahəsi üzrə fəaliyyət göstərən müəssisədə quşlar kütləvi şəkildə tələf olub.**

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) mütəxəssisləri bununla bağlı müvafiq araşdırmalar aparıb və zəruri tədbirlər həyata keçirib. Tələf olan quşlardan nümunələr götürülüb, laborator müayinələr nəticəsində quşlarda qarışıq infeksiyon xəstəlik törədiciləri aşkarlanıb.

Nəzərə almaq lazımdır ki, hazırda dünyanın 45 ölkəsində "quş qripi" xəstəliyi öz varlığını qoruyub saxlayır. Qorxulusu ondan ibarətdir ki, qonşu Rusiyada, o cümlədən Qazaxıstanda da bu virusa rastlanıb. Abşeron rayonu ərazisində tələf olmuş quşların mütəxəssislərin iştirakı ilə biotəhlükəsizlik qaydalarına uyğun məhv edilməsinə baxmayaraq, ehtiyatsızlıq etmək olmaz.

**Mövzu ilə bağlı "Şərq"ə danışan həkim-infeksionist Vüqar Cavadzadə bildirib ki, "quş qripi" hava-damcı yolu ilə yayıla bilər:** "Bu xəstəlik köçəri quşlar tərəfindən gətirilir, quşçuluq təsərrüfatına ciddi ziyan vurur. İnsanlar arasında kütləvi yoluxma ola bilər. Köçəri quşları ovlamaq lazım deyil. Ev quşları qapalı şəraitdə saxlanmalıdır, təmas olmamalıdır".

*Qeyd edək ki, AQTA bir daha vətəndaşlara diqqətli olmağı, xəstəlik əlamətləri müşahidə edilən və ya tələf olan quş cəsədlərindən uzaq durmağı, şübhəli hallarla bağlı dərhal agentliyin "1003 - Çağrı Mərkəzi"nə məlumat verməyi tövsiyə edir.*

**Aygün Tahirqızı**




## Yoluxma sayı 1000-də ötəcək

### Ancaq bunu yeni dalğa kimi qələmə vermək doğru deyil

**Artıq bir neçə gündür ki, yoluxma göstəricilərində artım müşahidə edilir.**

Dünən koronavirus (COVID-19) infeksiyasına 980 yeni yoluxma faktı qeydə alınıb, 309 nəfər müalicə olunaraq sağalıb. COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 12 nəfər isə vəfat edib. Azərbaycanda indiyədək ümumilikdə 241 651 nəfər koronavirus infeksiyasına yoluxub. Qeyd edək ki, bir gün öncə 376 nəfər koronavirusa yoluxmuşdu. **Həkim-infeksionist Vüqar Cavadzadə "Şərq"ə mövcud durumu şərh edib:** "Statistik göstəricilərin dalğadan xəbər verdiyini deməzdim. Qarşıdan Novruz bayramı gəlir. İnsanların bir-biri ilə təması artır. Yoluxma sayı mini də ötəcək".

**Aygün Tahirqızı**

# Şirniyyatlar bir çox xəstəliklərə təkan verir

## "Valideynlər 20 il əvvəl uşaqlarının arıq olmasından şikayət edirdilər, indi isə..."



"Şəkərbura-paxlava sezonuna start verildi... Allergiya, mədə-bağırsaq, qara ciyər problemi olan və piylənmədən əziyyət çəkən uşaqlara məhdudiyyət qoyun...qoz-fındıq, sitrus meyvələri də məhdud olmalıdı...".

**Bu sözləri özünün "Facebook" hesabında pediatr Vaqif Qarayev yazıb. Onun sözlərinə görə, normanı keçmək ciddi fəsadlara səbəb ola bilər. Həkim bunun səbəbini isə "Şərq"ə izah etdi:**

"Şirniyyat dövrün bəlasıdır. Valideynlər 15-20 il əvvəl uşaqlarının çəkisizliyindən şikayət edirdilər. İndi isə artıq çəki məsələsi gündəmə gəlib. Çünki piylənmə əmələ gəlir. Bunun əsas səbəbi tərkibində kalori həddindən artıq çox olan qidalar, o cümlədən şirniyyatlardır. Ona görə də həmin qidalardan istifadə edərkən diqqətli davranmaq lazımdır. Xüsusilə piylənmədən, qaraciyər, mədə-bağırsaq problemlərindən əziyyət çəkənlərə, allergiyası olanlara çox şirniyyat yemək məsləhət görülmür.

> "Adətən bayramdan sonra allergiya, mədə-bağırsaq şikayətləri artır"

Başa düşürəm, bayram ildə bir dəfə olur. Uşaqlara tam qadağa qoymaq da olmaz. Amma sərhəddi gözləməkdə fayda var".

*V.Qarayev, həmçinin bildirdi ki, Novruzda qidalanmamıza qarşı həssas olmalıyıq:* "Adətən bayramdan sonra allergiya, mədə-bağırsaq şikayətləri artır. Hətta çox şirniyyat yemək böyüklər üçün də təhlükəlidir. Onlarda şəkər koması ola bilər. Əslində bayram süfrəsində olan hər şeyi - yağlı yeməkləri, çərəzi, sitrus meyvələrini qədərində qəbul etməyəndə ciddi fəsadların meydana çıxması tam mümkündür. Odur ki, təkrarlayıram - diqqətli olaq".

**Kənan**

# Kəndin xilaskarı...

## "İlançı Mustafa" bu işi heç bir ödəniş almadan edir





(Əvvəli səh: 16-da)

Göktürk Anadolu Agentliyinə (AA) verdiyi açıqlamasında ilanlara dair məlumatları kiçik yaşlarından öyrəndiyini bildirib. Bu səbəbdən də artıq onlardan qorxmadığını söyləyib:

"Gənc yaşlarımdan evlərə girən ilanları tutmağa başladım. Bununla da zaman keçdikcə ətrafdakı insanlar məndən kömək istəməyə başladı. Əlbəttə ki, bütün ilan növlərini araşdırdım. İlanlar haqqında ətraflı məlumata sahib oldum. Xüsusən kənd yerlərindəki evlərdə çoxsaylı ilanlar olur. Vətəndaşlar "evimə ilan girdi, mənə kömək edin" deyə məni axtarır. Mən də könüllü olaraq gedirəm və heç bir ödəniş almadan evə girən ilanı tuturam".

İnsanların onu təəccüblə izlədiklərini söyləyən Göktürk: "İlan tutduğuma görə adımı "İlançı Mustafa" qoydular. Bunu Təbiəti Qoruma və Milli Parklar səlahiyyətlilərinin məlumatı əsasında edirəm. Vətəndaşlara ilanlara zərər verməmələri barədə xəbərdarlıq edirəm. Az öncə evin balkonunda tutduğumuz ilan böyük gürzə növünə aid idi, nəsli kəsilmək təhlükəsi olan bir növdür. Sulanma, ovçuluq və sığınacaq kimi amilləri nəzərdən keçirdikdən sonra onu təbiətə buraxacağam. Çünki onların hər birinin bir yeri və müxtəlif vəzifəsi var. Havaların istiləşməsi ilə əlaqədar olaraq ilanlar tez-tez görülməyə başlayır. Düzdür, ortaya çıxan ilanlar vətəndaşların qorxu yaşamasına səbəb olur. İnsanlardan xahiş edirəm, ilanları öldürməyin".

**Aynurə Pənahqızı**

## Azercell "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyalarının tətbiqinə artıq hazırdır!

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin verdiyi tapşırığa əsasən azad edilmiş ərazilərdə qurulacaq şəhərlər və kəndlər "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyasına əsaslanmalı, dünyanın ən qabaqcıl texnologiyaları orada tətbiq olunmalıdır. Bu konsepsiya ilə bağlı "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələrində müxtəlif hallərdə istifadə ediləcək qurğuların internet bağlantılarının təmin olunması üçün lazım olan şəbəkə infrastrukturunu ilk olaraq sınaqlar həyata keçirərək hazır vəziyyətə gətirən Azercell şirkəti oldu.




"Əşyaların İnterneti" (İOT) texnologiyaları əsasında az enerji tələbatlı sensorların çalışa biləcəyi şəbəkəsi olan ilk şirkət Azercell oldu

Yeni texnologiyaların tətbiqi ilə istifadəçilərinin həyat keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırmağı hədəfləyən Azercell Telekom "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələrində iştirakı ilə də bu məqsədə xidmət edəcək. Qeyd olunan konsepsiyanın infrastrukturu yüksək texnologiyalar əsasında qurulur və bu layihələrdəki xidmətlərin çalışmasında istifadə edilən qurğuların bir qismi Azercell-in hal-hazırkı 2G/3G/LTE şəbəkəsi üzərindən fəaliyyət göstərə bilər, lakin bəzi hallərdə az enerji tələbatı olan (məsələn, kiçik batareyalarla çalışan) xüsusi sensor və qurğuların (məsələn, su/qaz sayğacı, kənd təsərrüfatında istifadə edilən sensorlar və s.) istifadəsi ilə rəqəmsal məlumatların mərkəzi sistemə ötürülməsi lazım gəlir. Mobil operatorlar bu tipli sensor və qurğuları dəstəkləmək üçün LTE şəbəkəsində "az enerji tələbatlı şəbəkə" funksiyasını (NB-IoT - Narrow-Band Internet of Things) təklif edir. Azercell Telekom da bu imkanı şəbəkəsinə tətbiq edərək lazımi sınaq testlərini keçirərək, abunəçilərinə xidmət və əməkdaşlığa hazır vəziyyətə gətirmişdir. Bu gurğulara dünyada geniş tətbiq edilən aşağıdakı cihazları misal çəkmək olar:

· Qapı sensorları - bəzən maqnit sensorlar və ya giriş sensorları olaraq da adlandırılır. Bu sensorlar izləmə sistemlərində bir qapının açıq olub-olmadığını bildirən və ya təhlükəsizlik sistemlərini daha da təkminləşdirilməsində və yüksək keyfiyyətinin təmin olunmasında əhəmiyyətli rol oynayan cihazlardır.

· Su və ya yanacaq səviyyəsini ölçən sensorlar - açıq və ya yeraltı rezervuarlar üçün xüsusilə uyğundur. Çənin üst hissəsi ilə su və ya yanacaq səviyyəsi arasındakı maye səviyyəsini ölçməyə imkan verir.

· Qaz sensoru - az enerji sərfiyyatı tələb edən qaz sensorları qaz aşkarlama sistemi, sızıntını aşkar etmək və istifadəçini sızıntının qarşısını almaq üçün xəbərdar etmək üçün istifadə olunur.

· Dayanacaq yerlərini, ayrılmış yerlərin doluluğuna nəzarət etməyə imkan verən "ağıllı" park sensoru.

· "Ağıllı" izləyici sensor - IoT-a əsaslanan texnoloji həllər vasitəsilə malların və istehsal aktivlərinin izlənməsi, xərclərin azalması və qənaət baxımından şirkətlər üçün çox əlverişlidir.

· Yalnız dolmuş tullantı qutularının toplanmasına və nəticədə real vaxt monitorinqi və daha əlverişli marşrut planlamağa şərait yaradan "ağıllı" tullantı qutuları sensoru.

"Ağıllı şəhər" və "Ağıllı kənd"də enerji resurslarından daha səmərəli istifadə olunduğundan proseslərin ətraf mühitə və insan sağlamlığına verdiyi mənfi təsir minimuma endirilir. Bu sistemlərin əsas ideyası inzibati ərazilərin bütün mümkün xidmət və obyektlərini vahid kompüterləşdirilmiş sistemdə birləşdirib idarə etməkdir. Müxtəlif elektronik və rəqəmsal metodlardan, sensorlardan istifadə olunaraq toplanılmış məlumatlardan istifadə edərək aktivlərin və resursların səmərəli istifadəsi təşkil olunur.

"Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyası özünün müxtəlif üstünlükləri və müsbət cəhətləri sayəsində gələcəkdə sözsüz ki, meqapolislərin, habelə orta və kiçik şəhərlərin ayrılmaz hissəsinə çevriləcəkdir. "Ağıllı" sistemlərin tətbiqi ekologiya mühitinin yaxşılaşdırması, vaxta qənaət, təhlükəsizlik xərclərin azalması, ümumiyyətlə şəhərin daha effektiv fəaliyyəti, kənd təsərrüfatının ən müasir texnologiyalar əsasında inkişafı, yüksək məhsuldarlıq deməkdir.

Azercell gələcək texnologiyalar dünyasında istifadəçilərinin bələdçisi olaraq müasir zamanda IoT (Əşyaların İnterneti) tərəfindən təqdim olunan məhdudiyyətsiz imkanlar və telekommunikasiya texnologiyaları vasitəsilə onlara daha rahat, "ağıllı" mühitdə işləmək və yaşamaq imkanı açır.

## "Bu qarabağlı qız məni boğaza yığıb"

Səməd Səmədov həyat yoldaşından danışıb



**Tanınmış müğənni Səməd Səmədov həyat yoldaşı ilə necə tanış olmasından danışıb. O, bu barədə "Hüseynova Bacıları" proqramında açıqlama verib.**

S.Səmədov xanımı haqqında bunları söyləyib: "Artıq 45 ildir birlikdəyik. Bu qarabağlı qız məni boğaza yığıb. Əvvəllər ildə bir dəfə məzunlarla görüş olurdu. Mən də ansamblla birgə əlimdə gitara ilə onların məktəbinə getmişdim. Elə orda tanış olduq".

**Samirə**

## Elnarə Abdullayeva qazi ilə görüşdü

"Mənimlə əlaqə saxlayıb dedilər ki, qazimiz sizinlə görüşmək istəyir"



**Xanəndə, Əməkdar artist Elnarə Abdullayeva son Qarabağ savaşının qazisi olan Xəyal adlı gənclə görüşüb.**

O, Xəyalla videosunu instaqram səhifəsində paylaşıb. Xanəndənin paylaşımı izləyicilərini kövrəldib.

**"Şərq"in məlumatına görə, xanəndə "post"a bu qeydi əlavə edib:** "Mənimlə əlaqə saxlayıb dedilər ki, qazimiz sizin ifalarınıza qulaq asır, fotolarınızı yanında saxlayır, sizinlə görüşmək istəyir. Dərhal Xəyalın görüşünə getdim. Allah Vətənimizin keşiyində dayanan hər kəsi qorusun!".

**Samirə**

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Psixologiya və Para psixologiya** (3-12 ay)

**Tel: (012) 566-88-96**

**(012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**

Baş redaktor: **Akif Aşırlı**

Baş redaktorun ı müavini: **Yusif Nəzərli**

Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov

**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535

**www.sherg.az**

e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.

**Telefon: 447-32-41 538-44-50, internet 538-44-15,**

**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**

SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111

Kod 200112 M/H AZ37NABZ01350100000000001944

VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 517

# Alimlər xəbərdarlıq edib

## Maskada çox gəzmək xərçəngin inkişafına təkan verir



**Yuhan Hidrobiologiya institutunun alimləri virusdan qorunmaq məqsədilə insanların taxdığı müxtəlif maskaların xərçəngin inkişafına təkan verəcəyini açıqlayıb.**

Medicina.az xəbər verir ki, alimlərin apardığı tədqiqatlar nəticəsində maska taxılması səbəbindən tənəffüs sistemi və orqanlarına gündəlik mikroplastik hissəciklərin daxil olmasını artırır. Bu hissəciklər maskanın materialındadır. Ağciyərlərə düşən plastik çox aramla şişir, birləşir və uzun müddətdən sonra həcmi böyüyür. İmmunitet ağciyərdə yad cisim olduğunu anlayır və ona hücum etməyə çalışır. Bu zaman iltihabi proses artır ki, məhz bu proses zamanı xərçəng şişləri aktivləşir. Aktivləşdirilmiş kömür tərkibli tibbi maskalarda 4 min plastik lif var. Ən az plastik pambıq, cərrahi, parça maskalarda olur. Pandemiyanın uzanması ilə insanların maskadan zərrə görməsi müddəti də artır. Alimlər virusdan qorunmaq üçün maskadan imtina etməməyə çağırıb, amma mümkün qədər az gün ərzində az maskada olmağı tövsiyə edir. Daha çox pambıq, cərrahi maskalardan istifadə edin.

# Gördüklərinə inanmadılar

## Xəzinə axtarışında olan türklər görün nə tapdılar



**Türkiyənin Kuyucak rayonunda xəzinə axtarışında olan şəxslər tarixi tapıntıya rast gəliblər.**

Metbuat.az xəbər verir ki, qanunsuz aparılan axtarışlar zamanı hündürlüyü 1 metr yarıma çatan qab tapıblar. Hadisə yerinə cəlb edilən polislər şübhəliləri nəzarətə götürüb. Tarixi qab barədə aparılan ilkin araşdırmalardan sonra tarixi tapıntının Osmanlı dövrünə aid olduğu irəli sürülüb. Osmanlı dövründə belə qablar "Pithos" adlanırdı. Axtarışların aparıldığı ərazi nəzarətə götürülüb. Araşdırmalar davam edir.

# Həkim xəstənin orqanları ilə şəkil çəkdi

## Yayılan fotolar sosial mediada geniş müzakirə olunub



**ABŞ-ın Miçiqan əyalətində bir həkim əməliyyat masasındakı xəstənin orqanları ilə şəkil çəkərək sosial media hesabında paylaşıb.**

"Şərq" "Haberglobal"a istinadən xəbər verir ki, bundan sonra həkim haqqında araşdırma başladılıb.

Qeyd edək ki, yayılan fotolar sosial mediada geniş müzakirə olunub. "Spekturm Hels" sağlamlıq qurumu sözügedən paylaşımlara görə xəyal qırıqlığına uğradığını və bu problemi həll etməkdən ötrü fəaliyyətə başladığını bildirib.

**Kənan**

# Süni orqanlar yaradılacaq və insanlara köçürüləcək



**Yaxın zamanlarda bir çox insan orqanlarını 3D-bioprinterində çap olunmuş orqanlarla əvəz etmək mümkün olacaq.**

Bunu Rusiya alimləri deyib. "Şərq" "Tass.ru"ya istinadən bildirir ki, Rusiya istehsalı olan 3D-bioprinterində çap olunmuş qalxanvari vəz siçana implantasiya olunduqdan sonra tam normal işləyir və bütün lazım olan hormonları ifraz edir. Alimlərin fikrinə görə, yaxın 15 il ərzində böyrək, qaraciyər kimi orqanların "çap olunması" və bu orqanların insanlara transplantasiyası mümkün olacaq. Hazırda dünyada bioprinterlərdə çox uğurla dəri, sümüklər, oynaqlar çap olunur.

**Yeganə**







# Kəndin xilaskarı...

## "İlançı Mustafa" bu işi heç bir ödəniş almadan edir





**Türkiyənin Hatay şəhərinin Hassa bölgəsində "İlançı Mustafa" adı ilə tanınan Mustafa Göktürk Amanos dağlarının ətəklərində olan kənd məhəllələrində ilanları ucu çəngəlli bir dəmir və plastik maşa ilə tutaraq təbiətə buraxır.**

"Şərq" Türkiyə mətbuatına istinadən xəbər verir ki, Mustafa vətəndaşların evlərinə, iş yerlərinə və tövlələrinə girən ilanları 14 ildir ki, könüllü olaraq tutur. 29 yaşlı Göktürk təhlükəli sayılan bu işin əslində çətin olmadığını bildirib. 15 yaşından ilan tutmaq işinə başlayan Göktürk evlərə girən ilanlara heç bir zərər vermədən və öldürmədən tutaraq onları sərbəst buraxır. Daha sonra o, qonşulara ilan mövzusunda da köməklik edir. Göktürk kənd məhəllələrində bir "xilaskar" olaraq tanınır. Bir qazma operatoru ilə dolanışığını təmin edən və bölgədə "İlançı Mustafa" olaraq tanınan Göktürk eyni zamanda xilasetmə qruplarının işini də öz işi ilə yüngülləşdirmiş olur.

*(Davamə səh: 15-də)*

# Ağlı başında olub

## 5 yaşlı uşağın ölümü ilə bağlı yeni detallar üzə çıxdı



**İki il öncə İzmirin Bornova ərazisindəki meşəlikdə tərk edilmiş binaya aid təndir çuxurunda cəsədi tapılan 5 yaşlı Eymen Sadık Durakı sevgilisi Serkan Elçetin öldürdüyü iddiası ilə tutulan Mine Durakın ağlı başında olduğu ortaya çıxdı.**

Qeyd edək ki, Mine Durak 2019-cu il sentyabr ayında oğlu Eymen Sadık Duraka şiddət göstərmək şüphəsi ilə polis əməkdaşları tərəfindən saxlanılmışdı. Qohumlarının evindən tapılan qadının yanında oğlu Eymən yox idi. Birinci dəfə polisə ziddiyyətli izahat verən Mine Durak daha sonra oğlunun sevgilisi Serkan Elçetin tərəfindən döyülərək qətlə yetirildiyini demişdi. Polis bölməsindən sonra Ədliyyəyə göndərilən Mine Durak və Serkan Elçetin 5 yaşlı Eymen Sadık Durakı öldürmək cinayətinə görə həbs olundular. Hadisədən sonra başlayan istintaqda İzmir Baş Prokurorluğu tərəfindən hazırlanan iddianamə 9-cu Ağır Cəza Məhkəməsində qəbul edilmişdi.

İş üzrə məhkəmənin 2 iyul tarixində keçirilmiş ikinci iclasında məhkəmə heyəti Mine Durakın ruhi cəhətdən sağlam olub-olmadığını təyin etmək üçün İstanbul Ədli Tibb Təşkilatından hesabat almasına qərar vermişdi. Məhkəmənin tələb etdiyi hesabat artıq məhkəməyə çatıb. Həmin sənəddə öldürülən uşağın anası Mine Durakın ruhi cəhətdən sağlam olduğu bildirilib.

**Aytac Ali**

# Bu dəfə bəyənilmədi

## Fahriye Evcen də fotoşop qurbanı oldu



**Pandemiya dövründə İnstaqramda daha aktiv olan aktrisa Fahriye Evcen yeni fotolarını izləyiciləri ilə bölüşüb.**

Türk mediasının məlumatına görə Fahriyenin indiyə qədər paylaşdığı fotolarına sevənləri bəyəni yağdırsa da, budəfəki şəkilləri bəyənilməyib.

Buna səbəb aktrisanın onları fotoşop proqramı ilə dəyişdirməsi olub. Evcenin etdiyi kiçik dəyişiklik izləyicilərin gözündən yayınmayıb. Onun yeni fotoları sosial şəbəkələrdə geniş müzakirələrə səbəb olub.